www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 noyabr 2025-ci il Çərşənbə № 201 (8811) Qiymәti 60 qəpik

**Xəbər**

## Azərbaycan məktəblərində erməni dili?

yazısı səh.6-da

**Gündəm**

### Trampın oğlu İrəvandan Bakıya niyə gəlmir?


kiçik Donald Tramp

**Sabiq nazir səbəbi açıqladı:** "Onun səfər etməməsində bu məqam rol oynaya bilər"

yazısı səh.9-da

### Paşinyan yeni mina xəritələrini gizlədir

yazısı səh.5-də

### Bakının AvroNestlə bağlı kritik qərarı

yazısı səh.4-də

### AMEA yeni tələbləri necə icra edəcək?

yazısı səh.6-da

### Azərbaycan-Suriya əlaqələrində "qızıl dövr"

yazısı səh.8-də

### Aİ-95 bahalaşmayacaq

yazısı səh.10-da

### Kino Agentliyində yeni qalmaqal

yazısı səh.11-də

### Bu rayonlar büdcədən dotasiya almayacaq

yazısı səh.10-da

### Çin avtomobilləri bu detaldan yanır

yazısı səh.13-də

### Naxçıvanın "simvolu"nun yoxa çıxmasının səbəbi bilindi

yazısı səh.10-da

### Həyət evi olanlara supulu ilə bağlı bəd xəbər

yazısı səh.14-də

### Monqolustan əti Beyləqan qoyunundan dadlıdır?

yazısı səh.13-də

# İCRA BAŞÇILARI CİDDİ NƏZARƏTDƏ

Son həbslərin ardınca onlara iş yerini tərk etmək yasaqlanıb; İH-lərin fəaliyyəti ilə bağlı köklü dəyişikliklər gündəmdə

yazısı səh.3-də



## Azərbaycan sülhməramlıları bu qərarı gözləyir

ABŞ BMT Təhlükəsizlik Şurasına Qəzza barədə qətnamə layihəsi təqdim edib

yazısı səh.9-da


Əli Kərimli

### AXCP sədrinin ABŞ-dən idarə olunan "imperiyası"

yazısı səh.7-də



### Elton Məmmədovu həbsxanadan qurtaran əmlakları

yazısı səh.3-də



### YAP-dan Mehdiyevlə bağlı açıqlama anonsu

yazısı səh.7-də



## Bakıda hərbi paradda yeni Rusiya silahı?

**Azərbaycanda 8 noyabr - Zəfər günü münasibətilə keçiriləcək hərbi parada Rusiya mətbuatı da diqqət ayırır.**

Qonşu ölkənin Bakıda keçiriləcək hərbi paradın məşqləri zamanı yeni nəsil rus silahının - "Tor-M2E" zenit-raket sistemlərinin nümayiş olunduğunu yazıb.

"Tor-M2E" istənilən hava şəraitində çalışan, qısa mənzilli taktiki zenit-raket kompleksidir. Kompleksin hədəfi məhvetmə məsafəsi quruda 15 km-ə, havada isə 10 km-ə qədərdir.

Rusiya saytı yazır ki, Bakı küçələrində həmçinin Çin istehsalı olan "HQ-9B" zenit-raket sistemləri də nümayiş etdirilib: "Bu komplekslər 250-300 km-ə qədər məsafədə 14 Max sürətlə eyni anda 8-10 hədəfi vura bilir. Bundan başqa, Bakıda Belarus istehsalı olan "Şilka" zenit qurğusunun modernləşdirilmiş variantı və "TATRA" bazasında hazırlanmış döyüş modullu zirehli yük maşını da görüntülənib". (Baku-post.az)

Qeyd edək ki, Azərbaycanın bir neçə "Tor-M2E" batareyası mövcuddur. Rusiya internet resursunda xəbər "Rusiya Azərbaycana yeni "Tor-M2E" zenit-raket sistemləri satdı" kimi təqdim olunsa da, əslində bu silahlar çoxdan alınıb.




## SOCAR-ın mənfəəti son 5 ildə nə qədər artıb?

**Son 5 ildə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) xalis mənfəətliliyi təxminən 2 dəfədən çox artıb.**

"Report" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib.

Nazirin sözlərinə görə, son 5 il ərzində şirkətin EBITDA göstəricisi (faizlər, vergilər və amortizasiyadan əvvəl mənfəət) isə təxminən 3 dəfədən çox artıb.

M.Cabbarov qeyd edib ki, vergi ödənişləri ilə bağlı səslənən bəzi mülahizələr düzgün deyil: "Bu məlumatlar açıqdır. Yanaşma belə olub ki, müəssisə yalnız mənfəət vergisini ödəyir. Amma belə deyil - SOCAR tərəfindən ödənilən vergilər müxtəlif növlərdən ibarətdir. Dövlət müəssisələrinin fəaliyyətinin optimallaşdırılması hər zaman aidiyyəti strukturların diqqətində olacaq".

Nazir həmçinin vurğulayıb ki, hər hansı şirkətin, o cümlədən SOCAR-ın fəaliyyəti ilə bağlı suallar birbaşa şirkətə ünvanlanmalıdır: "Xüsusilə deputatlar tərəfindən səslənən sualların cavablandırılacağından əminəm".

## Yağıntılar nə vaxta qədər davam edəcək?

**Azərbaycanda müşahidə olunan faktiki hava açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata əsasən, ölkə ərazisinin bəzi yerlərində arabir yağış, Kəlbəcər, Laçın, Qubadlının yüksək dağlıq ərazilərinə isə qar yağıb.

Daşkəsən, Ağdam, Sarıbaş (Qax), Kişçay (Şəki), Şamaxı, Qrız, Xaltan, Göyçay, Lerikdə duman müşahidə olunur, görünüş məsafəsi 500 metrədək məhdudlaşır.

Ölkə ərazisində müşahidə olunan yağıntılı hava şəraiti noyabrın 5-i gündüzədək davam edəcək.

## Bakıda "əlillik dərəcəsi" verən dələduz tutuldu

**Bakıda dələduzluq edən şəxs saxlanılıb. Nəsimi Rayon Polis İdarəsi 19-cu polis şöbəsi əməkdaşlarının keçirdikləri tədbir nəticəsində dələduzluq etməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş D.Məhərrəmova saxlanılıb.**

Onun bir nəfəri əlillik dərəcəsi almaqda kömək edəcəyi adı altında aldadaraq 3500 manatını dələduzluq yolu ilə ələ keçirdiyi məlum olub.

Faktla bağlı araşdırma aparılır.

# "Qarabağ" bir milyard avroluq kluba qarşı




**Azərbaycan çempionu "Qarabağ" bu gün Çempionlar Liqasının qrup mərhələsində İngiltərənin köklü klublarından "Çelsi" ilə qarşılaşacaq.**

"Çelsi" üçün Bakı yad məkan deyil. London təmsilçisi 2019-cu ildə burada keçirilən Avropa Liqasının finalında "Arsenal"ı 4:1 hesabı ilə məğlub edərək kuboka sahib çıxmışdı. Həmçinin komanda 2017/18 mövsümündə "Qarabağ"a qarşı iki oyunda da qələbə qazanmışdı.

Hazırda hər iki komanda qrupda eyni xala malikdir. "Qarabağ" ilk turda "Benfika" üzərində 3:2 hesablı qələbə qazanaraq sensasiya yaradıb, daha sonra "Kopenhagen"i məğlub edib, yalnız "Atletik Bilbao"ya uduzub.

"Çelsi" isə son turlarda uğurlu çıxışı ilə diqqət çəkir. Komanda son oyunda "Tottenhem"ə qalib gəlib və Almaniyada aldığı məğlubiyyətdən sonra "Benfika" və "Ayaks" üzərində qələbələrlə formaya qayıdıb.

Proqnozlara görə, "Çelsi"nin qalib gəlmə ehtimalı təxminən 73%-dir. "Qarabağ"ın qələbə şansı 13%, heç-heçə ehtimalı isə 14% təşkil edir. Ekspertər hesab edirlər ki, görüş 2-1 və ya 3-1 "Çelsi"nin xeyrinə yükunlaşacaq.

"Transfermarket" məlumatına görə, "Çelsi" klubunun heyət dəyəri 1,14 milyard avro, "Qarabağ"-ın isə 24,83 milyon avrodur.

Görüş 5 noyabrda, saat 21:45-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək.



## Xankəndidə küçəyə Ənvər Paşanın adı verildi

**Xankəndidə küçələrin birinə Ənvər Paşanın adı verilib.**

Bu barədə İctimai TV məlumat yayıb.

Bildirilib ki, müvafiq qərarla şəhərin mərkəzi küçələrindən biri Ənvər Paşanın adını daşıyacaq.

Qeyd edək ki, Ənvər Paşa Osmanlının dövlətinin böyük ictimai-siyasi və hərbi şəxsiyyətlərindən olub. 1918-ci ildə Azərbaycanın böyük hissəsi məhz Osmanlının hərbi naziri Ənvər Paşanın əmri ilə yaradılıb və Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu tərəfindən erməni-daşnak işğalından azad edilib.

## Bakıda bu küçələr bağlanacaq




**8 noyabr - Zəfər Günü ilə əlaqədar keçiriləcək tədbirə hazırlıq məqsədilə 5-6 noyabr tarixlərində səhər saat 10:00-dan 16:00-dək paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkəti tam məhdudlaşdırılaraq istiqamət dəyişdiriləcək.**

Bununla əlaqədar Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi sürücülərə müraciət edib.

**Məhdudiyyət tətbiq ediləcək küçə və prospektlərin siyahısı:**

- Bakı Su İdman Sarayından, Teleteatr binasının yanından və Şeyx Şamil küçəsindən "Azneft" dairəsi istiqamətinə;

- Neftçilər prospekti, Z.Əliyevə, Ü.Hacıbəyli və 8 Noyabr prospektinin bir hissəsi;

- Ağ Şəhər Bulvarı, X.Rüstəmov küçəsindən Y.Səfərov küçəsinə qədər hərəkət məhdudlaşdırılacaq.

Paytaxtın cənub giriş qapısından sürücülər "Azneft" və "Neftçilər" dairəsinə alternativ kimi Bakı-Salyan yolunun 14-cü kilometrliyindən Lökbatan dairəsi istiqamətində üçüncü kənar dairəvi yolla "20 Yanvar" və ya Yeni Yasamal ərazisindən keçməklə hərəkət edə bilərlər.

Eyni zamanda 20-ci sahə, Bayıl qəsəbəsində yaşayanlar isə qəsəbənin daxili yolları ilə Qurban Abbasov küçəsindən keçməklə Teymur Elçin, Mehdi Hüseyn və Lermontov küçələri



## Mehdiyevin oğlu haqda yeni xəbər

**Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin həbsindən sonra ardıcıl olaraq onun həyat yoldaşı, qızı və gəlini tutduqları vəzifələrdən azad olundular. Akademikin fövqəladə hallar nazirinin müavini vəzifəsində çalışan oğlu Teymur Mehdiyevin də karyerası ilə vidalaşacağına dair yayılan xəbərlər isə öz təsdiqini tapmır.**

Mətbuat.az xəbər verir ki, atasının həbs edilməsinə, ailə üzvlərinin vəzifədən çıxarılmasına baxmayaraq, oğul Mediyevin iş qrafikində heç bir dəyişiklik baş verməyib. O, hər gün səhər 9-da işdə olur, bəzən axşam 20:00, hətta 21:00-a kimi vəzifəsinin icrasını davam etdirir: "Digər müavinlər kimi Teymur Mehdiyev də nazir evə getməyənədək iş yerini tərk etmir".

Məlumatlı şəxs oğul Mehdiyevin işdən çıxarılıb-çıxarılmayacağına dair nazirlikdə hər hansı müzakirə aparılmadığını bildirib: "Hər kəs bilir ki, bu məsələ birbaşa dövlət başçısının səlahiyyətinə daxildir".

Qeyd edək ki, general-mayor Teymur Mehdiyev 25 iyun 1975-ci ildə Gürcüstan Respublikasının Suxumi şəhərində anadan olub. O, Bakı Dövlət Universitetini bitirib, hüquq elmləri namizədidir.

Ailəlidir, 2 övladı var.

## Gələn il qrantlara az pul veriləcək

**2026-cı ilin dövlət büdcəsi layihəsində cari ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə xərclərin iqtisadi təsnifatının 5 bölməsi üzrə azalma proqnozlaşdırılıb.**

2025-ci illə müqayisədə növbeti ildə məbləğ ifadəsində ən böyük azalmalar "Qrantlar və digər ödənişlər" (1462,0 mln. manat) və "Subsidiyalar" (265,9 mln. manat) bölmələrində nəzərdə tutulub.

Qeyd edək ki, 2024-cü ildə büdcədən qrantlar və digər ödənişlər üçün 4152.8 mln. manat, 2025-ci ildə isə 4770.1 mln. manat ayrılmışdı.

2026-cı ilin dövlət büdcəsi layihəsində isə "Qrantlar və digər ödənişlər" üçün 3308.1 mln. manat nəzərdə tutulub.

Bu, 2024-cü illə müqayisədə 844.7 mln. manat, 2025-ci illə müqayisədə isə 1462,0 mln. manat az vəsait deməkdir.

# İcra başçıları ciddi nəzarətdə

## Son həbslərin ardınca onlara iş yerini tərk etmək yasaqlanıb; İH-lərin fəaliyyəti ilə bağlı köklü dəyişikliklər gündəmdə

**Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayevin oktyabrın 30-da DTX tərəfindən saxlanılmasından sonra rayon rəhbərlərinin başının üstünü alan “qara buludlar” bir qədər də sıxlaşıb. İcra başçıları ilə bağlı əməliyyatların davam edəcəyi və yeni həbslərin olacağına dair iddiaların ardı-arası kəsilmir.**

Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Nadir Muradovun və daha bir neçə vəzifəli şəxsin noyabrın 1-də saxlanılmasından sonra bu ehtimallar bir qədər də qüvvətlənib. Bildirilir ki, yerli icra hakimiyyəti başçılarının fəaliyyətinə nəzarət bir qədər də gücləndirilib. Məsələn, icra başçılarına və rəhbərlikdə təmsil olunan məmurlara bir sıra məhdudiyyətlər tətbiq edilib. Onlara çalışdıqları rayonları icazəsiz tərk etmək qadağan olunub. (mənbə: mətbuat.az).



Bəllidir ki, rayonda işləyən icra başçılarının əksəriyyətinin ailəsi Bakıda yaşayır. Onlar həftənin cümə günü paytaxta gəlir və birinci gün işlərinin başına dönürlər. İndi isə ciddi zərurət olmadığı halda onlara işlədikləri rayonları tərk etməmək tapşırılıb. “Bu isə o deməkdir ki, hüquq-mühafizə orqanları fəaliyyətində ciddi qanunsuzluqlara yol verən, vəzifə səlahiyyətlərindən sui-istifadə edən, rüşvət və korrupsiya ilə məşğul olan məmurların qapısını həftənin bütün günləri döyə bilər”, - deyə xəbərdə bildirilir.

Yeri gəlmişkən, hazırda ölkəmizdə icra başçısı olmayan rayonların sayı 4-dür. Bunlar Balakən, Qax, Bakı şəhərinin Nəsimi və Naxçıvan Muxtar Respublikasının Culfa rayonlarıdır. Qax Rayon İcra Hakimiyyətində iyun ayında əməliyyat keçirilib və icra başçısı M.Şəkiliyev həbs edilib. O, qulluq mövqeyindən istifadə etməklə xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə cinayətində ittiham olunur. Bakının Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı postu da 2024-cü ildən etibarən boşdur. 2023-cü il avqustun 31-də Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev vəzifəsindən azad edilib. O, 2019-cu il aprel ayının 2-dən bu postda çalışırdı. İki ildən çoxdur Culfa rayonuna icra başçısı təyin edilməyib.

Son dövrlər icra hakimiyyətlərində aparılan əməliyyatlar və həbslər bu strukturlarda uzun müddət vəzifədə qalan məmurlarla bağlı müəyyən sualları gündəmə gətirib. Belə ki, həbs olunan icra başçılarının əksəriyyətinin 10 ildən artıq müddətdə rəhbər vəzifədə çalışması bu postlara vaxt məhdudiyyətinin tətbiqi barədə müzakirələri gücləndirib. Yəni onlara da, məsələn, diplomatlar kimi maksimum 5 illik rotasiya qaydası tətbiq edilə bilər.

O da faktdır ki, işğaldan azad edilən bölgələrdə Prezidentin nümayəndəlikləri sınaqdan keçirilir və onların fəaliyyəti özünü doğruldub. Ekspertlər növbəti mərhələdə icra hakimiyyətlərinin ləğvi və bütün səlahiyyətlərin nümayəndəliklərə ötürülməsi ehtimalını müzakirə edirlər.

İcra başçılarına nəzarət mexanizminin təkmilləşdirilməsi də gündəm mövzularından biridir. Rəsmi sənədlərdə 3-7 min manat maaş alan icra başçılarının lüks həyatı haqlı suallar doğurur. Onu da qeyd edək ki, icra başçıları dövlət tərəfindən başqa imtiyazlarla da təmin olunurlar - xidməti avtomobil, tibbi sığorta, sanatoriya göndərişləri və s. Eyni zamanda onlar çox vaxt vəzifələrindən sui-istifadə edərək özləri üçün ultra komfort şərait yaradırlar. Bəzi icra başçıları Avropa ölkələrində özlərinə mülk alır, biznes qururlar. Onlar əsasən hökumətdə daha iri məmurların yaxın ətrafına daxildirlər və tutduqları post da həmin şəxslərin nüfuzu hesabına əldə olunub.

Bəs nəzarət mexanizmini necə təkmilləşdirmək olar? Özlərini rayonun “padşahları” hesab edənlərin səlahiyyətləri azaldılması mümkündürmü?

**Hüquqşünas Qulamhüseyn Əlibəylinin** “Yeni Müsavat”a bildirdiyinə görə, ölkənin idarəetmə sistemində ciddi dəyişikliklərə ehtiyac var. Onun fikrincə, icra hakimiyyəti sistemində müəyyən dəyişikliklər olub, amma problemləri həll etməyib: “Yerlərdə hakimiyyətin dəyişməsi mexanizmi artıq köhnəlib və işə yaramır. İndiki mexanizm özünü faktiki olaraq doğrultmur. Məlumdur ki, konstitusiyaya əsasən, yerlərdə icra hakimiyyətini prezidentin təyin etdiyi icra başçıları idarə edir. Amma rayon və şəhər idarəetmə sistemindən tədricən regional idarəetmə sisteminə keçmək lazımdır. Bunu bir sıra ekspertlər də təklif kimi irəli sürür və dəstəkləyirlər. Yəni mərkəzi hakimiyyətlə yanaşı, iqtisadi zonalar üzrə regional idarəetmə orqanları yaradılmalıdır”.

**Q.Əlibəyli hesab edir ki, eyni zamanda şəhər və rayon icra hakimiyyətlərinin səlahiyyətləri tədricən bələdiyyələrə verilməlidir:** “Bunu birdən-birə etmək problem yaradacaq. Ona görə də mərhələli şəkildə addımlar atılmalıdır. Həmçinin bələdiyyələrin səlahiyyətləri artırılmalı, onların seçki praktikasında ciddi dəyişikliklər olmalıdır. Çünki indi bələdiyyələr de-fakto icra hakimiyyətlərindən asılı vəziyyətdədir. Bütün bu mexanizmlərə keçidi asanlaşdırmaq üçün həm də yerli icra başçılarının təyinatına diqqət artırılmalıdır”.

**Hüquqşünasın sözlərinə görə, kadrlar seçilərkən onların korrupsiyaya meylli olub-olmaması nəzərə alınmalıdır:** “Yeni kadr təyinatı zamanı namizədlər ciddi şəkildə araşdırılmalıdır. Kimisə hansısa səbəbdən vəzifəyə təyin etmək sonda korrupsiyaya səbəb olur, yerli camaatın da onun fəaliyyətindən narazılığına gətirib çıxarır. Ümumiyyətlə, daxili siyasətdə bir çox islahatlara zərurət var. Azərbaycanın xarici siyasəti kifayət qədər uğurludur, lakin daxildə bu problemlərin aradan qaldırılması zamanıdır. Çünki müəyyən vaxt keçdikdə idarəetmənin yenilənməsi vacibdir. Əks təqdirdə, mənfi nəticələrini verir. Bunun üçün konstitusiya dəyişikliklərinə də ehtiyac görmürəm və sadəcə, islahatlar həyata keçirməklə idarəetmədə müsbət nailiyyətlər əldə etmək mümkündür”.

Qeyd edək ki, Azərbaycanda 10 icra başçısı rüşvət və mənimsəmə ittihamı ilə həbs olunub. Onların bəzilərinin cəzası qismən azaldılıb, biri azadlığa çıxıb, biri isə həbsdə koronavirus xəstəliyindən vəfat edib. Bundan başqa, onlarla başçı müavini, baş memar və müxtəlif vəzifəli şəxslər istintaqa cəlb olunub. Bu həbslərin davamı istisna deyil.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



# Elton Məmmədovu həbsxanadan qurtaran əmlakları

## Novxanıda bağ evi, üç son model avtomobil, kafe...

**Adı son günlər Ramiz Mehdiyev işində və AMEA-da 3 milyonluq cinayətdə hallanan keçmiş deputat, hazırda AMEA-nın Sosial Xidmətlər Şöbəsinin müdiri olan Elton Məmmədov ətrafında söz-söhbət bitmir.**

Yada salaq ki, ötən həftə Baş Prokurorluq Elton Məmmədovla bağlı rəsmi xəbər və xəbərdarlıq yayıb.

Bildirilib ki, E.Məmmədovun Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi üzrə istintaqa çağırılması xəbərini təkzib etməsi yalan informasiyadır. “AMEA-da baş verən qanunsuzluqlar barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla israf etmə) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə ibtidai istintaqı davam etdirilən cinayət işi üzrə 3 milyon manat büdcə vəsaitinin əsassız olaraq xərclənməsinə şübhələr müəyyən edilib. İstintaq tədbirləri nəticəsində əsassız olaraq xərclənmiş 3 milyon manat büdcə vəsaitinin Elton Məmmədov tərəfindən tam şəkildə dövlət büdcəsinə ödənilməsi təmin edilib”.

Məlumatda o da bildirilirdi ki, mediada həqiqətə uyğun olmayan və cəmiyyətdə çaşqınlıq yaradan açıqlamalar yaydığına, həmçinin ibtidai istintaqın obyektivliyinə və ictimai etimada xələl gətirə biləcək hərəkətlərə görə E. Məmmədov Baş Prokurorluğa dəvət olunub, ona qanunvericiliyin tələbləri izah edilməklə rəsmi xəbərdarlıq edilib.

Yada salaq ki, Cinayət Məcəlləsinin 308.2-ci maddəsi (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 179.4-cü maddəsi (xüsusilə külli miqdarda mənimsəmə və ya israf etmə) iqtisadi fəaliyyət sahəsində ciddi cinayətlər kateqoriyasına daxildir. Xüsusilə 179.4-cü maddədə qeyd olunur ki, təqsirkar şəxsə etibar edilmiş özgə əmlakının mənimsənilməsi və ya israf edilməsi “xüsusilə külli miqdar”da baş verdikdə, bu, artıq ağır cinayət hesab olunur.

Qanunvericiliyə əsasən, “xüsusilə külli miqdar” 500 min manatdan yuxarı olan məbləğ kimi müəyyən edilir. Lakin Cinayət Məcəlləsinin 73.3-cü maddəsinə əsasən, əgər təqsirləndirilən şəxs istintaq dövründə dəymiş zərəri tam şəkildə və ya onun azı 50 faizini dövlət büdcəsinə ödəyərsə, bu halda o, cinayət məsuliyyətindən azad oluna bilər.

Bəs E.Məmmədov bu pulu necə ödəyib? İddia olunur ki, sabiq deputat qeyd olunan pulu ödəmək üçün olan-qalan hər şeyini satıb. Yəni 3 milyonu ödəmək heç də asan olmayıb. (Mənbə: oxu24.com).

Belə ki, o, Novxanı qəsəbəsindəki dəbdəbəli bağ evini, 3 ədəd son model avtomobili, “20 Yanvar” metrosu ətrafında yerləşən kafesini, “MAİN” Yaşayış Kompleksində beş ədəd 2 və 3 otaqlı mənzilləri, böyük sahəyə malik avtoqarajı, Həsən Əliyev küçəsində - keçmiş “Tramvay Parkı”nın yerində yerləşən özünəməxsus şirkətin inşa etdiyi hündürmərtəbəli binadakı iki mənzili dəyər-dəyməzinə satıb.

Xatırladaq ki, E.Məmmədov keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşıdır. Qardaşların hər ikisinin dövlətə xəyanət və başqa ağır cinayətlərdə ittiham olunan Prezident Administrasiyasının sabiq rəhbəri, AMEA-nın keçmiş prezidenti Ramiz Mehdiyevin sadiq adamları olduğu bildirilir.

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 201 (8811) 5 noyabr 2024

# Bakının AvroNestlə bağlı kritik qərarı

## Gürcüstan Avropanın bu təsisatı ilə əlaqələri kəsir; Azərbaycan da son sessiyasına qatılmadığı qurumla münasibətlərinə aydınlıq gətirməli olacaq

**"Bu gün çox təəssüf ki, Avropa Parlamenti Avropa İttifaqının digər institutları kimi AvroNest platformasını da şantaj və təzyiq vasitəsinə çevirib". Bu fikirlər Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin AvroNest Parlament Assambleyasının qətnamələrinə cavab bəyanatında əksini tapıb.**

Bəyanatda qeyd olunur ki, bəzi avroparlamentar deputatlar qətnamələrin mətnlərinə Gürcüstan cəmiyyəti üçün tamamilə qəbuledilməz və qıcıq doğuran qeydlər əlavə ediblər: "Qətnamələrdən birində 2024-cü ilin parlament seçkiləri "saxtalaşdırılmış", xalq tərəfindən seçilmiş hakimiyyət isə "özünü elan etmiş" adlandırılır. Həmçinin polis əməkdaşlarına və dövlət institutlarına hücum etmiş, barələrində məhkəmənin ittihamedici hökmləri çıxarılmış şəxsləri "siyasi məhbuslar" kimi təqdim edir ki, bu da qanunun aliliyi prinsiplərinə ziddir".

Ş.Papuaşvilinin sözlərinə görə, Avropa Parlamentində bu qüvvələrin düşmənçilik və dar düşüncəli yanaşmasını nəzərə alaraq, Gürcüstanın Daimi Parlament Nümayəndəliyi AvroNestin gələcək sessiyalarında iştirak etməyəcək. Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili də deyib ki, AvroNest platforması artıq ölkənin milli maraqlarına xidmət etmir.

Qeyd edək ki, AvroNest Avropa İttifaqı ilə Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Ukrayna və Belarusun parlamentarilərinin birgə əməkdaşlığına əsaslanan qurumdur. Bu təsisat beynəlxalq dialoq üçün yeni platformalar yaratmaq cəhdi idi. Lakin qərarsızlıq, qərəzli diskurs və ikili standartlar bu təsisatı yararsız bir quruma çevirdi. Azərbaycan dəfələrlə bu qurumdakı haqsız qərarlara görə fəaliyyətini dayandırmaq istəyib. Son olaraq AvroNest Parlament Assambleyasının oktyabrın 28-dən 30-dək İrəvanda keçirilən iclasında Azərbaycan parlamentinin nümayəndə heyəti iştirak etməyib. Nümayəndə heyətinin rəhbəri Tahir Mirkişili deyib ki, AvroNest PA-nın yarısını təşkil edən Avropa Parlamentinin qəbul etdiyi sənədlər, bəyanatlar Azərbaycanın dövlət suverenliyinə, ərazi bütövlüyünə qarşıdır, regionda gedən sülh prosesini dəstəkləmir, əksinə, regionda düşmənçiliyin davam etməsində maraqlı olan qüvvələrin dəyirmanına su tökür.

Yada salaq ki, Azərbaycan ötən ilin yanvarından, Gürcüstan isə bu ilin yanvarından AŞ PA-dakı fəaliyyətini dayandırıb. Hər iki ölkəyə qarşı irəli sürülmüş ittihamların motivi aşağı-yuxarı eynidir. Azərbaycanda insan haqlarının pozulması mövzusunda şərtlər irəli sürülüb. Avropa Şurası Gürcüstandan isə ötən ilin oktyabrında bu ölkədə keçirilmiş parlament seçkilərinin nəticələrinin ləğvini, qanunsuz aksiyalarda tutulanların azadlığa buraxılmasını, yeni parlament seçkilərinin keçirilməsini tələb etdiyi üçün Gürcüstan nümayəndə heyəti də fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. Azərbaycan və Gürcüstanın yoxluğunda AŞ PA-da "söz haqqı olan" yeganə Cənubi Qafqaz dövləti Ermənistan qalır.

Azərbaycan hər zaman beynəlxalq qurumlarda təmsil olunmağa və ikitərəfli əməkdaşlığa üstünlük verib. Ancaq dövlət və milli maraqlara təhdid, qərəz varsa, o zaman Prezident İlham Əliyev çox doğru qərarlar qəbul edir. Heç bir qurum və ya dövlət Azərbaycana diktə edə bilməz və rəsmi Bakı tam müstəqil, beynəlxalq normalara uyğun fəaliyyət göstərir.

Bəs Gürcüstandan sonra Bakının AvroNestlə bağlı kritik qərarı nə ola bilər?

**Deputat Arzuxan Əlizadə** "Yeni Müsavat"a xatırlatdı ki, Azərbaycan bəlli səbəblərdən AŞ PA-da fəaliyyətini qeyri-müəyyən müddətə dayandırmaq qərarı verib, çünki səsvermə hüququ əlindən alınıb. Onun sözlərinə görə, təbii ki, ədalətsiz bir qərar verilmişdi və Azərbaycanın cavabı adekvat idi. Deputat yada saldı ki, Azərbaycan və Ermənistan AŞ PA-ya eyni vaxtda qəbul olunub, lakin bu Qərb təsisatının ölkələrə münasibəti eyni olmayıb: "Hər iki ölkə AŞ PA-ya qəbul olunanda biri digərinin ərazisini işğal altında saxlayırdı. Ancaq 20 il ərzində AŞ PA Ermənistana işğalçı siyasətinə görə heç bir sanksiya tətbiq etmədi. Elə ki Azərbaycan torpaqları azad etdik, bizə sanksiya qoyuldu".

**Deputat AvroNest tədbirində iştirakdan imtinanın da məhz bu ədalətsiz qərarlarla bağlı olduğunu vurğuladı. Avropa Parlamentinin erməni hərbi canilər siyasi girov hesab etdiyini deyən A.Əlizadə bildirdi ki, belə olan halda onun bir qolu sayılan AvroNestin tədbirində iştirakımız düzgün olmazdı:** "Son illər Avropa təsisatlarında türkofobiya və islamofobiya ilə "silahlanmış" qruplar var. Onlar erməni cinayətkarları öz siyahılarına salır, bu qatilləri müdafiə edir, işi siyasiləşdirir, ümumiyyətlə, ermənipərəst mövqe sərgiləyirlər. Çünki həmin qruplar erməni lobbisinə bağlıdır. Biz də buna haqlı olaraq sərt təpki göstərmişik. Eyni ədalətsiz mövqe Gürcüstana qarşı da var. O baxımdan hər şey qarşı tərəfin münasibətindən asılı olacaq. Əgər Avropa təşkilatları Azərbaycana ədalətsiz yanaşmasını davam etdirsə, dəyişən nə isə olmayacaq. Lakin mənə elə gəlir ki, yaxşılığa doğru bir irəliləyiş müşahidə olunur".

**Onun fikrincə, Qərb təsisatları ilə əlaqələr normallaşacaq, çünki Azərbaycan Avropa İttifaqının üzvü olan 10 ölkə ilə strateji tərəfdaşlıq sənədi imzalayıb, "Qoca qitə"nin bazarına qaz nəql edir, beynəlxalq nəqliyyat kommunikasiyalarının açılması perpektivi var və ölkəmizin sanbalı, nüfuzu da getdikcə daha da artmaqdadır**: "Bu da onları bizimlə hesablaşmağa məcbur edir. Azərbaycan mühüm beynəlxalq logistikanın keçdiyi yolda yerləşir. Biz həm də Avropanın bir parçasıyıq, Şərqlə Qərb arasında körpü rolu oynayırıq. Ona görə də Avropa bizimlə münasibətləri pozmamalıdır, siyasətinə korrektə etməlidir. Eyni zamanda Azərbaycan da dostlarının sayını artırmalıdır. Düşmənlərin sayını artırmaq asandır, amma düşməni də dosta çevirməyi bacarmalıyıq. Fikrimcə, Azərbaycan Prezidenti uğurlu xarici siyasət yürüdür, beynəlxalq arenada mühüm işlər görüb, ölkəmizə münasibətin köklü şəkildə dəyişməsində böyük rolu olub, ona görə Avropa Parlamenti, AŞ PA kimi təsisatlarla əlaqələrin yaxşılaşması da qaçılmazdır. Sadəcə, bu prosesi sürətləndirmək lazımdır. İlk növbədə qarşı tərəfi ədalətli qərarlar verməyə məcbur etməliyik, amma milli maraqlardan geri çəkilməmək şərti ilə..."

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**




## "Qərb Ermənistandan üz döndərib" iddiası

### AvroNestin İrəvanda keçirilən son iclasında Paşinyan hakimiyyəti niyə sərt tənqid olunub?

**"Heç də bütün Qərb dairələri baş nazir Nikol Paşinyanı və onun hökumətini dəstəkləmir". Teleqraf xəbər verir ki, bu barədə "Past" qəzeti məlumat yayıb. Nəşrin yazdığına görə, bunu son vaxtlar bir sıra Qərb KİV-lərində dərc olunan kəskin məqalələr, eləcə də Avropa rəsmilərinin Ermənistana qarşı apardıqları kampaniyalar sübut edir.**

Mənbənin fikrincə, Nikol Paşinyanın kilsə əleyhinə apardığı kampaniya, Ermənistanda baş verən siyasi həbslər, xüsusən də iş adamı Samvel Karapetyanın həbsi Qərbdə o qədər də xoş qarşılanmayıb: "Məsələn, AvroNest Parlament Assambleyasının İrəvanda keçirilən son iclasında Avropa Parlamentinin deputatları Naço Sançes Amor və Sergey Laqodinski Ermənistan hakimiyyətinin hərəkətlərinə çox sərt reaksiya verib. Ötən həftə nüfuzlu "Financial Times" kifayət qədər geniş məqalə dərc edib. Ümumiyyətlə, bu günlərdə bir sıra Qərb mediası Ermənistanda baş verən siyasi həbsləri işıqlandırır.

Məlum olduğu kimi (təsisçisi İrəvanda həbs edilmiş rusiyalı iş adamı Samvel Karapetyan olan), "Bizim Yol" hərəkatının koordinatoru Narek Karapetyanın Nyu-Yorka səfəri də maraqlıdır və orada onun məşhur amerikalı siyasi şərhçi Taker Karlsona müsahibəsi nəzərdə tutulub. Müsahibə zamanı hansı məsələlərə toxunulacağı yaxın vaxtlarda bəlli olacaq, amma müsahibə faktının özü çox diqqət çəkir.

Birincisi, bu hala Ermənistanda Samvel Karapetyanın Rusiyanın dəstəyinə malik olması barədə yayılmış stereotipdən baxmaq olar. Bu stereotip onun biznes fəaliyyətinin əksəriyyətini Rusiyada qurmasına əsaslanır.

İkinci fakt budur ki, Karlson müxtəlif dövlətlərin liderləri, o cümlədən Rusiya Prezidenti Vladimir Putin, ABŞ Prezidenti Donald Tramp, İran Prezidenti Məsud Pezeşkian, Macarıstan baş naziri Viktor Orban və sairlə müsahibələr aparıb. Ermənistana münasibətdə müsahibəyə ölkənin baş nazirini deyil, müxalifət xadimini dəvət edir. Taker Karlson Amerikanın ən tanınmış siyasi şərhçilərindən biridir və Tramp administrasiyası ilə sıx əlaqələrə malikdir. Belə məsələlərdə heç vaxt təsadüflər olmur. Deməli, Qərbdə Nikol Paşinyandan əllərini çəkməyə başlayıblar".

Xatırladaq ki, erməni əsilli rusiyalı milyarder Samvel Karapetyan iyunda Ermənistanda hakimiyyəti devirməyə açıq çağırış ittihamı ilə həbs edilib. Bundan sonra "Bizim Yol" adlı siyasi hərəkat təsis edən iş adamı 2026-cı ildə keçiriləcək parlament seçkilərində iştirak edəcəyini açıqlayıb. Samvel Karapetyanın həbsi Rusiyada rezonans doğurub, hətta Xarici İşlər Nazirliyi səviyyəsində bu məsələyə münasibət bildirilib. Onun seçkilərdə Kremlin mümkün namizədlərindən biri olması barədə iddialar var.

YENİ MÜSAVAT
N 201 (8811) 5 noyabr 2025

# Paşinyan yeni mina xəritələrini gizlədir

## Erməni baş nazir Azərbaycanla bağlı son günlər diqqətçəkən və müsbət fikirlər səsləndirir, amma əməli addımlara gələndə İrəvan özünü karlığa və korluğa vurur

**"Ermənistan tərəfi əllərində olan bütün xəritələri verdiyini deyir. Amma 44 günlük müharibədən sonra antiterror əməliyyatlarına qədər onlar haradasa 480 kilometr uzunluğunda, 2 kilometr dərinlikdə minalama işləri aparmışdılar. 960 kvadrat kilometr ərazini əhatə edən mina xəritələri Azərbaycana təhvil verilməlidir".**

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov belə deyib. Onun sözlərinə görə, Vətən müharibəsinə qədər minalanmış ərazilərin xəritələrini 3-4 dəfəyə verdilər: "Bu xəritələr Araz çayından başlayan və "Ohanyan xətti"nə qədər olan ərazini əhatə edirdi və 400 minə yaxın mina ilə bağlı məlumat vardı. Bu minalardan 97 mini Ağdamda, 92 min Füzulidə, qalanı isə digər ərazilərdə idi. Sonra da Murov dağının ətəklərinə aid 8 formulyar verdilər. Amma 44 günlük müharibədən sonra yaratdıqları yeni cəbhə xəttinə aid heç bir sənəd Azərbaycana verilməyib". H.Səfixanov bu xəritələrin verilməsinin həm qarşılıqlı etimadı gücləndirəcəyini, həm də Azərbaycan hökumətinin işini asanlaşdıracağını qeyd edib: "Çünki biz "Ohanyan xətti"ni keçəndən sonra nəyin harada olduğunu bilmirik. Bu, orada hər yer minalanıb anlamına gəlmir. Amma harada nə var - onu da bilmirik. İşimizi çətinləşdirən budur. Xəritələr verilsə, yaxşı olar. Etimad mühitinin yaranmasına kömək edər. Əgər hər iki ölkənin siyasi rəhbərliyi məqbul sayarsa, birgə minatəmizləmə də həyata keçirmək olar. Ermənistanda da minatəmizləmə təşkilatı var. Elə ərazilər var ki, orada birgə minatəmizləmə həyata keçirmək mümkündür. Qazax rayonu ərazisindəki kəndlərdə, Zəngəzur dəhlizinin keçdiyi ərazilərdə birgə əməliyyatlar aparmaq olar. Bunlar hamısı etimad, sülh mühitinin yaradılmasına xidmət edə bilər". İctimai birlik sədri Azərbaycanın mina xəritələri ilə bağlı Ermənistana rəsmi müraciət edib-etmədiyindən xəbərsiz olduğunu söyləyib: "Bəlkə də kluarlarda bu söhbətlər, müzakirələr var. Amma hələ ki rəsmi səviyyədə ictimaiyyətə deyilməyib".(Modern.az).




Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla bağlı son günlər diqqətçəkən və müsbət fikirlər səsləndirir. Amma əməli addımlara gələndə, İrəvan özünü karlığa və korluğa vurur. Eynilə mina xəritələri ilə bağlı olduğu kimi... Beləcə, Ermənistan rəhbərliyi ölkəmizə qarşı ərazi iddialarının əksini tapdığı konstitusiya şərtinə əməl etməməklə yanaşı, mina xəritələrinin də verilməsindən yayınır. Belə bir vəziyyətdə isə mina qurbanlarının da sayı artır. Hələ aşkarlanmayan yüz minlərlə minanın ortaya çıxaracağı təhlükələr var. Sülh bəyanatları arxasındakı məkrli davranışlar nə vaxta qədər davam edəcək? Ermənistanla "hansı dildə" danışmalıyıq?

**Deputat Elçin Mirzəbəyli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyan son aylarda Azərbaycanla sülh danışıqları barədə müsbət bəyanatlar səsləndirsə də, praktiki addımlar səviyyəsində bu ritorikanın təsdiqini görmək mümkün deyil: "Ən bariz nümunə mina xəritələrinin gizlədilməsi ilə bağlı vəziyyətdir. Rəsmi Bakı uzun müddətdir Ermənistanın müharibədən sonrakı dövrdə minalanmış ərazilərin dəqiq xəritələrini təqdim etmədiyini bildirir. Bu, təkcə humanitar fəlakət riskini artırmır, həm də bölgədə etimad mühitinin formalaşmasını və sülh prosesinin irəliləməsini ciddi şəkildə ləngidir. Məsələnin ən təhlükəli tərəfi ondan ibarətdir ki, xəritələrin verilməməsi Azərbaycan ərazilərində bərpa və yenidənqurma proseslərini yubatmaqla yanaşı, mülki əhali arasında insan tələfatına səbəb olur. Rəsmi məlumatlara əsasən, müharibədən sonra 350-dən çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində xəsarət alıb və ya həlak olub. Onlardan 100-dən çoxu həyatını itirib. Hər yeni mina partlayışı yalnız bir ailənin faciəsi deyil, həm də sülh prosesinə vurulan zərbədir".

**E.Mirzəbəyli qeyd etdi ki, 44 günlük Vətən müharibəsindən sonra Ermənistan ərazisində və işğaldan azad edilmiş torpaqlarda aparılmış minalama fəaliyyətinin miqyası və nəticələri bu gün də bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalır:** "Rəsmi məlumatlara görə, müharibə bitdikdən sonra Azərbaycanın azad edilmiş torpaqlarında beş mindən artıq mina partlayışı hadisəsi baş verib, yüzlərlə hərbçi və mülki şəxs həlak olub və ya xəsarət alıb. Bu hallar bir tərəfdən Ermənistanın humanitar məsuliyyətsizliyini, digər tərəfdən isə beynəlxalq hüququn açıq şəkildə pozulmasını göstərir. Ermənistan 1994-cü ildən etibarən Birləşmiş Millətlər Təşkilatının üzvü kimi "Müəyyən adi silahların istifadəsinin qadağan edilməsi və ya məhdudlaşdırılması haqqında Konvensiya"ya (CCW) və onun V Protokoluna ("Müharibənin Partlamamış Qalıqları haqqında") qoşulub. Bu Protokolun 3 və 4-cü maddələri birbaşa olaraq müharibə bitdikdən sonra partlamamış döyüş sursatları və minaların təmizlənməsi, onların yerləşmə məlumatlarının təqdim edilməsi və müvafiq xəritələrin paylaşılması ilə bağlı konkret öhdəlikləri müəyyən edir. Səsən, hərbi əməliyyatlar bitdikdən sonra tərəflər öz nəzarətlərindəki ərazilərdə minaların, tələlərin və partlamamış sursatların zərərsizləşdirilməsi üçün məsuliyyət daşıyırlar. 4-cü maddəyə görə isə tərəflər bu məqsədlə minaların yerləşdiyi ərazilər, koordinatlar, növlər və say barədə bütün texniki məlumatları qarşı tərəfə və ya beynəlxalq vasitəçi qurumlara təqdim etməyə borcludurlar. Beləliklə, Ermənistanın bu məlumatları gizlətməsi yalnız ikitərəfli münasibətlərdə etimadsızlıq doğurmur, həm də V Protokolun açıq pozuntusu sayılır. Ermənistanın davranışı, BMT-nin və Beynəlxalq Qırmızı Xaç Komitəsinin müəyyən etdiyi humanitar müharibə qaydalarına da ziddir. Bu qaydalar münaqişə bitdikdən sonra insan həyatının qorunmasını prioritet elan edir. Mina xəritələrinin gizlədilməsi nəticəsində isə mülki əhalinin təhlükəsizliyi təhdid altına düşür, bərpa və infrastruktur layihələrinin həyata keçirilməsi ləngidilir, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi reabilitasiyası faktiki olaraq sabotaj olunur".

**Ermənistanın qeyri-konstruktiv davranışlarının qarşısında rəsmi Bakının hansı addımlar atmalı olduğuna gəldikdə, Milli Məclis üzvünün fikrincə, Azərbaycan tərəfi bu məsələnin beynəlxalq müstəviyə çıxarılmasını davam etdirməli, xəritələrin gizlədilməsini humanitar cinayət kimi tanıtmaq istiqamətində diplomatik fəaliyyətini gücləndirməlidir:** "Bu vəziyyətin dəyişməsi üçün Ermənistanın sülh ritorikasını real addımlarla müşayiət etməsi zəruridir. Mina xəritələrinin tam və şəffaf şəkildə təqdim olunması həm Azərbaycan, həm də Ermənistanın öz gələcəyi üçün həyati əhəmiyyət daşıyır. Çünki minalar yalnız torpağı deyil, eyni zamanda region xalqları arasında etimadı da zəhərləyir. Sülhün təməli isə etimad və humanitar məsuliyyət üzərində qurulur".

❑ **Elşad PAŞASOY,
"Yeni Müsavat"**



## Baş nazirliyə iddialıların siyahısında tək sülh tərəfdarı

### Paşinyan "Qarabağsız Ermənistan" şüarı ilə seçkiyə gedir

**Ermənistanın baş naziri Nikol Paşinyan 2026-cı ildə keçiriləcək parlament seçkilərində iştirak edəcəyini rəsmi şəkildə bəyan edib. O, iqtidarda olan Vətəndaş Müqaviləsi Partiyasından öz namizədliyini irəli sürüb. Baş nazirin seçkilərdə iştirak qərarı onun rəhbərlik etdiyi partiyanın son aylarda üzləşdiyi təzyiqlər, kilsə ilə açıq qarşıdurma və müxalifətin küçə etirazları fonunda verilib. Paşinyan çıxışında bildirib ki, partiyası ölkəni "müharibə və revanşizm təfəkküründən xilas etmiş yeganə siyasi qüvvədir" və seçkilərdə bu siyasətin davamı üçün mübarizə aparacaq: "Biz müharibəni yox, sülhü seçdik. Biz nifrəti yox, inkişafı seçdik. 2026-cı ildə xalq yenidən kiminlə gələcəyə getmək istədiyini göstərəcək".**

Nikol Paşinyan illik "Orbeli: Sülh və çoxtərəfli əməkdaşlıq quruculuğu" adlı beynəlxalq forumda çıxışı zamanı bildirib ki, siyasi mənada Ermənistan və Azərbaycan arasında münaqişə başa çatıb, lakin sosial-psixoloji baxımdan o davam edir, Azərbaycanla Ermənistan arasında artıq sülh qurulub, lakin əsas çətinlik indi diplomatiyada deyil, "yeni reallığı" dərk etməkdədir.

Baş nazir həmçinin deyib ki, ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə potensial qayıtması Ermənistanla Azərbaycan arasında bərqərar olmuş sülhə təhlükə yarada bilər: "Qarabağa ermənilərin qayıtması "sülh üçün risk" olardı. Bu məsələ, ümumiyyətlə, təhlükəlidir, çünki bu, münaqişənin ilkin parametrlərinə qayıtmaq deməkdir. Sülh yeni doğulmuş uşaq kimidir qayğı tələb edir. Biz sülh müqaviləsi imzalamalı, sərhədi delimitasiya etməli və bir-birimizi tək qoymalıyıq".

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a bildirdi ki, 2026-cı il parlament seçkilərində baş nazirliyə namizədlər arasında müharibə deyil, sülh vəd edən yeganə şəxs Nikol Paşinyandır: "Seçkilərdə iştirakla bağlı namizədliyini Ermənistanın sabiq prezidenti Robert Köçəryan, sabiq ombudsman Arman Tatoyan, hazırda həbsdə olan milyarder Samvel Karapetyan, David Ambarsumyan da irəli sürüb. Siyahının genişlənəcəyi gözlənilir. Hələ ki namizədliyini irəli sürən şəxslər, Nikol Paşinyan istisna olmaqla, Azərbaycanla sülhün əleyhinə olan, revanşist mövqedə olan şəxslərdir. Faktiki olaraq indidən gün kimi aydındır ki, Ermənistanda seçkilər müharibə tərəfdarları ilə sülh tərəfdarı arasında mübarizə şəraitində keçəcək. Seçicilər sanki bülletendə "sülh" və "müharibə" yazısının qarşısında münasibətlərini qeyd etmiş kimi olacaqlar".

Politoloq dedi ki, hazırkı mənzərəyə görə 2026-cı il parlament seçkiləri Paşinyanla revanşist qüvvələrin arasında amansız mübarizə ilə xarakterik olacaq.

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# AMEA yeni tələbləri necə icra edəcək?

## Alimləri böyük sınaq gözləyir

**“Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir. Bu gün biz bunu iqtisadi inkişafda görürük, yeni texnologiyaların tətbiqində görürük, yeni müharibələrdə görürük. Ona görə texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür”.**

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr olunmuş tədbirdə belə deyib. Dövlət başçısı deyib ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, elmin inkişafı müəyyən edir: “Yəni təbii resurslar bizim üçün, sadəcə olaraq, bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır...” Prezident deyib ki, elmin inkişafı üçün sərmayəni dövlət qoymalıdır. Dövlət rəhbərinin sözlərinə görə, on il bundan əvvəl süni intellekt barədə heç kim heç nə danışmırdı: “Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Biz hər zaman əsas aparıcı xəttin, yəni "mainstream"in, əgər belə demək mümkündürsə, arxasınca gedirik və geri qalmamalıyıq. Ona görə Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik".

**Dövlət başçısı kibertəhlükəsizlik, eləcə də hərbi sənaye sahəsində elm adamlarını əməkdaşlığa çağırıb.** “Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, əfsus ki, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu istiqamətdə bu gün biz çox fəal işləyirik. Yenə də deyirəm, biz təbii ki, dövlət və özəl şirkətlərimizi, eyni zamanda, Azərbaycan alimlərini bu istiqamətə dəvət edirik”, - deyə o bildirib.

**Prezident deyib ki, elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır:** “Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər”.

Prezident alimləri azad edilmiş torpaqlarda geoloji kəşfiyyat işlərində fəal olmağa çağırıb. “Bu, xüsusilə Qarabağda və Şərqi Zəngəzurda çox böyük əhəmiyyət kəsb edir. Çünki bu ərazi sovet vaxtında lazımınca tədqiq edilməmişdir və tədqiq edilsə idi belə, yenə də ovaxtkı texnologiyalarla onları tam öyrənmək mümkün deyildi. Yəni bu gün müasir texnologiyalarla peykdən tədqiqat, zondlama aparılır. Təbii resurslar, o cümlədən qeyri-ənənəvi neft yataqlarının aşkarlanması bir çox hallarda fiziki, yəni, əraziyə girmədən müəyyən edilir. Ona görə mənim göstərişimlə artıq bir neçə aydır ki, Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır. Azərbaycan alimlərini bu işlərə dəvət edirəm, dövlət strukturlarına da göstəriş verirəm. Hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək. Bizim çox zəngin təbii resurslarımız var - qızıl, gümüş, mis yataqları, polimetal yataqlar. Onların aşkarlanması, kəşfiyyatı, işlənməsi bizə böyük xeyir gətirəcək, Qarabağ və Şərqi Zəngəzur regionlarımızda iş yerlərinin böyük sayda yaradılmasına gətirib çıxaracaqdır”.



Beləliklə, AMEA-da nitqində Prezident İlham Əliyev keçilən yolu, müasir şəraiti təhlil etməklə yanaşı, elmimizin qarşısında dayanan vəzifələri göstərdi. Azərbaycan alimlərinə müxtəlif sahələr və istiqamətlər üzrə çağırışlar etdi, onlardan gözləntilərinin nədən ibarət olduğu barədə olduqca dəyərli fikirlər ifadə etdi.

AMEA yeni tələbləri necə icra edəcək? Potensial varmı?

**Milli Məclisin deputatı, professor Hikmət Babaoğlu “Yeni Müsavat”a bildirdi ki, Azərbaycan Prezidentinin Milli Elmlər Akademiyasında etdiyi çıxış əslində konseptual proqram xarakteri daşıyırdı:** “Çünki bu çıxış hazırda yeni reallıqda həm Azərbaycan elminin, həm iqtisadiyyatının qarşısında duran mühüm vəzifələrlə bağlı bir çağırış idi. Cənab Prezidentin çıxışının leytmotivi elm və sənayeni, elm və iqtisadiyyatı birləşdirərək yeni tarixi mərhələdə yeni innovativ iqtisadiyyatımızı formalaşdırmaqla bağlı idi. İkincisi, AMEA-nın qarşısında duran əsas vəzifələrdən digəri kimi, Azərbaycan Prezidenti tariximizin yenidən öyrənilməsi və bunun ictimai təfəkkürün qavrayacağı tərzdə təqdim olunması ilə bağlı idi. Başqa bir istiqamət isə tariximizlə bağlı həqiqətlərin üzə çıxması üçün tədqiqat əsərlərinin qlobal miqyasda beynəlxalq arenada tanıdılması ilə bağlı idi. Bu isə hazırkı komplektləşdirmə və hazırkı funksionallıqla bir qədər çətin görünür. AMEA-da çox təcrübəli, çox dərin biliklərə malik yüksək səviyyəli alimlərimiz var. Amma görünür, bu potensialın real tədqiqatlara çevrilməsi üçün iş metod və üsullarında dəyişikliklər etmək lazımdır. Yeni prioritet istiqamətlər müəyyənləşdirilməlidir və tariximizlə bağlı tədqiqatları apararkən bunu təkcə Azərbaycanın inzibati sərhədləri ilə məhdudlaşdırmalı deyilik. Çünki Azərbaycan Prezidenti çıxışında dedi ki, bizim sərhədlərimizdən kənarda, Xəzər ətrafında yaşayan insanlar bu gün də azərbaycanlılardır. Mən ümid edirəm ki, bu çağırışdan sonra AMEA-da tamamilə yeni, bu günün çağırışları ilə uzlaşan bir fəaliyyət proqramı hazırlanacaq və qısa müddətdə Azərbaycan Prezidentinin çağırışları istiqamətində dərin elmi tədqiqatlar aparılacaq”.

**Milli Məclisin sədr müavini, AMEA-nın müxbir üzvü Musa Qasımlı Modern.az-a deyib ki, Prezident İlham Əliyevin AMEA-nın 80 illiyinə həsr olunmuş toplantıdakı nitqi tarixi əhəmiyyət daşıyır:** “Dövlət başçımızın nitqində akademiyanın keçdiyi yol, müasir şərait və elmimizin qarşısında dayanan ən vacib məsələlər öz əksini tapmışdı. Prezidentin nitqində göstərilən vəzifələr Azərbaycan elminin yol xəritəsi olmalıdır. Hesab edirəm ki, bizim elmi tədqiqat institutlarımız cənab Prezidentin nitqindən irəli gələn məsələlərin hər birini nəzərə alacaqlar”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Azərbaycan məktəblərində erməni dili?

## Ermənistanın orta məktəblərində Azərbaycan dilinin tədrisi xəbərlərinin arxasında dünyanın gözünə “kül üfürmək” niyyəti durur

**Erməni mediası xəbər verir ki, ölkənin Təhsil və Elm Nazirliyi regional dil tədrisi üçün xüsusi proqram hazırlayıb. Belə ki, fars və gürcü dillərinin 5-ci sinifdən tədrisinə icazə verilir. Azərbaycan və türk dillərini isə yalnız orta məktəbdə 10-cu sinifdən (?!) öyrənmək olar. Bildirilir ki, 2025-2026 tədris proqramında adı açıqlanmayan üç ümumtəhsil məktəbində Azərbaycan dilini öyrənmək imkanı yaradılıb.**

Məlumatda deyilir ki, gələcəkdə bu təcrübə genişləndiriləbilər, lakin bu, müvafiq mütəxəssislərin sayından asılıdır. Nazirlik dil öyrədəcək müəllimlər qarşısında ciddi tələblər də qoyur. Yəni qonşu dövlətlərin (İran, Azərbaycan, Gürcüstan və Türkiyə) dilini tədris edəcək müəllim bu dili yaxşı səviyyədə bildiyini sübut etməlidir. Nazirlik etiraf edir ki, hazırda belə müəllimlər azdır...



Ehtimallara görə, orta məktəbdə guya Azərbaycan dilini öyrənmək xəbərlərinin arxasında ya Avropa Birliyindən qrant qoparmaq niyyəti dayanır, ya da dünyanın gözünə “kül üfürmək” niyyəti...

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə deyib ki, Ermənistanda Azərbaycan dili fənninin tədrisi uzunmüddətli perspektivdə qarşılıqlı anlaşmanın və dialoqun möhkəmlənməsinə gətirib çıxara bilər. “Əgər ermənilər bizim mənbələri, ədəbiyyatımızı və tariximizi oxusalar, vəziyyətə daha real baxa bilərlər. Bu zaman onlar dünyanı, eləcə də regionu daha obyektiv görər, uydurma miflərdən uzaq durar və Azərbaycanın mövqeyini daha yaxşı anlayarlar”, - deyə sədr müavini söyləyib.

**Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov isə bildirib ki, Azərbaycandakı orta məktəblərdə erməni dilinin tədrisi istiqamətində addımlar atıla bilər və bu, olduqca vacibdir:** “Uzun illərdir ki, Ermənistan Azərbaycanla bağlı müxtəlif layihələr həyata keçirir. Qeyd etmək lazımdır ki, Ermənistan artıq çoxdan Azərbaycanla bağlı elmi tədqiqatlar aparır, ölkəmizi öyrənir. Bu gün bizim də eyni istiqamətdə ciddi addımlar atmağımıza ehtiyac var”.

Deputat həmçinin vurğulayıb ki, biz də Ermənistanı dərindən öyrənməli, onun tarixini, cəmiyyətini, siyasətini və mədəniyyətini ciddi şəkildə araşdırmalıyıq: “Azərbaycanda bu istiqamətdə müəyyən dövlət qurumları və strukturları tərəfindən addımlar atılır, lakin bu proses mərhələli şəkildə həm orta məktəblərdə, həm də universitetlərdə davam etdirilməlidir. Bizim üçün region dövlətlərini öyrənmək son dərəcə mühüm əhəmiyyət daşıyır. Bölgənin tarixini dərindən bilmədən oradakı proseslərə hakim olmaq, düzgün siyasət yürütmək mümkün deyil”.

**C.Məmmədov onu da əlavə edib ki, təkcə Ermənistanı deyil, Gürcüstanı, Rusiyanı və digər qonşu ölkələri də yaxından öyrənməli, onların dillərini mənimsəməliyik:** “Bu, bizim üçün həm vacib, həm də strateji baxımdan prioritet məsələdir. Bu baxımdan, sözügedən məqsədə mütləq şəkildə nail olmalıyıq. Gec olmadan bu prosesə öz töhfəmizi verməli və onu sistemli şəkildə həyata keçirməliyik”.

# AXCP sədrinin ABŞ-dən idarə olunan "imperiyası"

## Əli Kərimlinin Facebook səhifəsinə nə qədər vəsait xərclənir?



**Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin dövlət çevrilişi ittihamı üzrə köməkçisi Eldar Əmirovun həbsi bu cinayət işinin getdikcə daha ciddi siyasi rəng aldığını göstərir. AMEA katibliyinin keçmiş rəisi, Prezident Administrasiyasının keçmiş əməkdaşı dövlət çevrilişinə cəhddə iştirak ittihamı ilə həbs edilib. Onun barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

"Report" yazır ki, R.Mehdiyevin yaratmaq istədiyi "Dövlət Şurası"nda təmsil olunacaq 50 nəfərin öncədən müəyyənləşdirildiyi və bu üzvlər arasında müxalifət nümayəndələrinin də yer aldığı haqda məlumatlar var. "Mənbənin məlumatına görə, siyahıda yer alan müxalifət düşərgəsindəki şəxslərdən biri AXCP sədri Əli Kərimlidir. Əbülfəz Elçibəyin sağ olduğu vaxtlarda ona xəyanət etməsi ilə yadda qalan AXCP sədri indi də missiyasına sadiqdir. Hələ əvvəldən onun Ramiz Mehdiyevin "çətiri" altına keçdiyi və uzun illər onun təlimatı ilə fəaliyyət göstərdiyi deyilirdi. Üzdə özünü hakimiyyətə sadiq göstərən Mehdiyev əslində radikal müxalifətə siyasi himayədarlıq edir, onların "mübarizə"si fonunda özünü dövlətin "böyük dayağı" kimi göstərməyə çalışırmış. 2013-cü ildə müxalifət partiyalarının birləşdiyi Milli Şuranın da Ramiz Mehdiyevin xeyir-duası və maddi dəstəyi ilə yaradıldığına dair məlumatlar yaddan çıxmayıb. Bu dəstək sonrakı illərdə də davam edib. Onun PA rəhbəri vəzifəsindən uzaqlaşdırıldığı 2019-cu ildən bəri Əli Kərimli, necə deyərlər, gündəmdən düşsə də, Mehdiyev öz dəstəyini davam etdirib. AXCP sədri isə bu dəstəyin qarşılığında özünün sosial media statuslarında PA rəhbərinin vəzifəsindən uzaqlaşdırılmasını başqa istiqamətə yönəltməyə çalışıb", - deyə "Report"un yazısında qeyd edilir.

Son vaxtlar Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlinin Facebook sosial şəbəkəsində xüsusilə aktivləşməsi diqqət çəkir. "Qafqazinfo" xəbər verir ki, Əli Kərimlinin Facebook səhifəsi ABŞ və Fransadan idarə olunur - bu işə Fransada 2 nəfər, ABŞ-də isə 1 nəfər cəlb olunub. "İkinci maraqlı məqam Ə.Kərimlinin xaricdən idarə olunan səhifəsinin aktivliyi üçün hər ay vəsait ödənilməsidir. Belə ki, hər ay Əli Kərimlinin paylaşımlarının daha çox kütləyə çatdırılması üçün pul ödənilir və 2022-2025-ci illərdə bunun üçün 7 000 AZN-ə qədər vəsait xərclənib. Yeri gəlmişkən, Əli Kərimlinin reklama qoyduğu son material Elton Məmmədovla bağlı paylaşımdır. Bunun üçün də Əli Kərimli, daha doğrusu, Qərbdən səhifəni idarə edənlər reklama 200 manata yaxın vəsait xərcləyiblər. "Ortaya məntiqli sual çıxır - bir partiya sədrinin şəxsi hesabı niyə xarici ölkələrdən idarə olunsun ki? Bu faktın özü bu partiya və onun rəhbərliyinin özünün xaricdən idarə olunmasını göstərmirmi? Paylaşımların reklama qoyulması üçün sərf edilən vəsaitin hansı mənbələrdən əldə edilməsi, hansı xidmətlərə görə verilməsi isə ayrıca araşdırma mövzusudur. Bu pulları da ABŞ və Fransadakı himayədarlarımı ödəyir? Və nəhayət, özünü partiya lideri kimi təqdim edən adamın xaricdən idarə olunması və sosial media səhifəsinin maliyyələşdirilməsi müqabilində götürdüyü öhdəliklər nədir?" sayt yazır.

**Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin deputatı Elşən Musayev "Yeni Müsavat"a açıqlamasında hər kəsin nəzərini ilk öncə bir məqama yönəltmək istədiyini vurğuladı:** "Əli Kərimlinin xüsusən son 2 həftədəki panikasına və həmin panikadan doğan isterikaya diqqət edin. Adam həqiqətən özündə deyil, çırpınır, çabalayır, vurnuxur və sanki nəyisə sübut etməyə çalışır. Çünki artıq yolun sonuna gəldiyini özü də anlayıb. Mehdiyev mövzusunda yaman "ilişib" və gözəl anlayır ki, bu dəfə onun köməyinə kimsə çata bilməyəcək. Nə xaricdəki qəyyumları, nə erməni lobbisi, nə qaramatbaş ətrafı, nə də Ramiz dayısı. Xaricdəki qəyyumları, havadarları deməkən, son olaraq, media üzərindən yayılan və faktlarla sübut edilən material da bir daha təsdiq etdi ki, Əli Kərimlinin nəinki özü, hətta Facebook səhifəsi belə kənardan idarə olunur. Bəlli maliyyə ilə, özü də Azərbaycana qarşı daim məkrli planlar və oyunlar quran qüvvələrin birbaşa dəstəyi, ölkəni qarışdırmaq, suyu bulandırmaq istəyən "xətt"lərin, ünsürlərin ümumi koordinasiyası ilə..."

**Deputat AXCP sədrinin Azərbaycan gəncliyinə müraciətinə də toxunub:** "Əli Kərimli valideynlərə müraciət edir ki, onlar uşaqlarını çox qorumasınlar və küçələrə, meydanlara dövr etsinlər. Xeyir ola? Niyə? Adamdan soruşmazlarmı ki, bəs sənin övladın haradadır? Onu niyə meydanlara, küçələrə göndərməmisən?"

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov isə qeyd etdi ki, Ramiz Mehdiyevin həbsi və onun ətrafında baş verənlər ölkədə ciddi rezonans doğurub:** "Bu həbs həm də bir çoxlarının ifşa edilməsinə, bağlantılarına və məkrli niyyətlərinin üzə çıxmasına şərait yaratdı. Bir daha məlum oldu ki, bəzi məmurlar, siyasi və ictimai şəxslər dövlətə sadiq deyil, onlar üçün dövlətçilik və milli maraqlar anlayışı şəxsi maraqlarının kölgəsində itib-batır. Yüksək postda olduğu zaman dövlət başçısının etimadından sui-istifadə edərək, ölkədə geniş şəbəkə qurmuş sabiq administrasiya rəhbəri müxalifətin də xidmətlərindən yararlanıb. Əqidəsinə və prinsiplərinə xəyanət yolu tutan xainlərlə işbirliyi yaradıb. Onlardan bəziləri məlumdur. Ancaq bəziləri maska altında qalan iç üzlərini gizlədə bilirlər. Ən təhlükəlisi də belələridir. Ramiz Mehdiyevin Azərbaycanda normal siyasi münasibətlərin qurulmasına çıxması, cəmiyyətdə qarşıdurmalar yaratması, iqtidar-müxalifət ziddiyyətlərinin düşmənçilik həddinə çatdırılması xüsusi məqsəd daşıyırdı. O, gərginliyi körükləməklə özünü önəmli və dövlətin dayağı kimi təqdim etməyə çalışırdı. Göstərmək istəyirdi ki, o olmasa, hakimiyyəti saxlamaq və möhkəmləndirmək, Azərbaycanı güclü dövlətə çevirmək mümkün deyil. Ona görə də Azərbaycana düşməncə yanaşan bütün ünsürlərlə əməkdaşlıq edir, onları maliyyələşdirir, informasiya dəstəyi göstərirdi. Onun "dövlət içində qurduğu dövlət" dağıdılandan sonra o da məlum oldu ki, xaricdə "söyüş müxalifəti" də "Boz kardinal"ın ən etibarlı komanda üzvü olan PA-nın keçmiş şöbə müdiri Əli Həsənov tərəfindən idarə olunub. Tezis və təlimatlar Bakıdan ötürülürmüş. Artıq həmin "söyüş müxalifəti" də demək olar ki, çökdürülüb. AXCP-nin sədri Əli Kərimlinin də Ramiz Mehdiyevlə əlaqələrinin olması mətbuatda geniş yer aldı. Onun son zamanlar fəallaşdırılması təsadüfi sayılmır. Görünür, həm daxildə, həm də xaricdə ölkədə və hakimiyyət daxilində aparılan təmizləmələrdən ciddi narahatlıq keçirirlər. Əli Kərimlini aktivləşdirməklə, ona maliyyə və media dəstəyi verməklə nəyəsə nail olmağa çalışırlar. Ramiz Mehdiyevi ifşa edən, məsuliyyətə cəlb edən dövlət, onun ayıq-sayıq təhlükəsizlik və xüsusi xidmət orqanları heç şübhəsiz ki, digərləri barədə də tədbir görəcək. Kimliyindən asılı olmayaraq, hər kəs törətdiyi əməlin məsuliyyətini daşıyacaq".

**Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**




## YAP-dan Mehdiyevlə bağlı açıqlama anonsu

**"Ramiz Mehdiyevə qarşı ittihamları Dövlət Təhlükəsizliyi Xidməti (DTX) irəli sürüb. Çox ağır maddələrdir. DTX dövlətçiliyin keşiyində çox ciddi dayanan bir qurumdur. Yəqin bunun əsasları olub ki, sonda belə bir qərar qəbul edilib".**

Bakupost.az xəbər verir ki, YAP-çı deputat Aydın Mirzəzadə bu sözləri "Yeni sabah"a müsahibəsində deyib. Millət vəkili qeyd edib ki, hazırda araşdırma gedir:

"Zamanı gələndə daha geniş açıqlamalar veriləcək. Ümumiyyətlə, Azərbaycanda bütün cinayətlərin tədqiqatı, məhkəmə prosesi barədə zaman-zaman cəmiyyətə məlumat verilir. Yəni gizli qalan heç nə olmur. Düzdü, Ramiz Mehdiyev çox yüksək postda işləmiş bir insandır. Ona görə də onun həbsi, ona qarşı cinayət işinin qaldırılması cəmiyyətdə çox geniş müzakirələrə səbəb oldu. Çox düzgün olaraq insanlar bunun niyə baş verdiyini və Ramiz Mehdiyevin hansı səbəbdən bu işə qol qoyması ilə bağlı suallar verirlər. Bütün bunların hamısı hazırda tədqiq edilir. Bu hadisədə başqa iştirakçıların olub-olmamasını istintaq müəyyənləşdirəcək. Dünən məlum oldu ki, Ramiz Mehdiyevin Elmlər Akademiyasında prezident olduğu dövrdə onun köməkçisi olan şəxs də məhz eyni maddələrlə həbs edilib. Görünür, buna çox ciddi əsaslar olub. Kimlər ki, bu işdə iştirakçıdır, onlar mütləq müəyyənləşdiriləcək və müvafiq qərarlar qəbul ediləcək".

YENİ MÜSAVAT
N 201 (8811) 5 noyabr 2025



# At südünü gözləyirik

Zamin HACI
zaminhaci@gmail.com

**Nazirlər və deputatlar Milli Məclisdə toplaşaraq gələn ilin dövlət büdcəsinin gərgin müzakirələrini aparırlar. Bu da istər-istəməz xalqımızı sevindirir, 2026-cı ildə daha xoşbəxt yaşayacağımız haqda geniş perspektivlər açır. Şəxsən mən büdcə müzakirələrini görəndə elə sevindim, bütün oxucularımı rəqsə dəvət edirəm!**

Büdcə müzakirəsi xəbərlərini izlədikcə insanın köksü qabarır, sinəsi çırpınır, bəzən hətta qanımız qaynayır. Halbuki başqa dövlətlərdə büdcə müzakirəsi qandonduran şəkildə aparılır. Görürsən deputat durub nazirə şəpitlərini tulladı, spiker icazəsiz danışan deputatın gözünə mikrafonu soxdu, nə bilim, canım sənə desin, parlament jurnalistləri balkondan tullanıb intihar elədi və sairə. Şükür etməliyik, dünyada baş verən qlobal tektonik proseslərin bizim büdcə müzakirələrinə heç bir təsir göstərmədiyini sevinclə izləməliyik. Atalar demişkən, sən hökuməti izlə, hökumət səni izləməsin. Əkəndə yoxdursa, yeyəndə başda oturmalıdır. Palaza bürün, metroda sürün. Hələlik bu qədər, folklor vaxtı deyil.

Müzakirələrdə diqqətimizi çəkən detallar budur ki, artıq hər bir deputat öz seçicisi, hər nazir öz sahəsi uğrunda çarpışır, mübarizə aparır. Bir deputat deyir mənim seçicilərimə yağ yaxmacı verin, başqa deputat nənəsi qayğanaq bişirməsə yata bilmədiyini söyləyir, nazirlər işçilərinə maaş istəyir...

Üstəlik, əsas büdcə oğrusu Ramiz müəllim hazırda villa dustağı olduğu üçün 2026-cı ilin dövlət büdcəsinin daha etibarlı əllərdə olacağı heç kəsdə şübhə doğurmur. Ümumiyyətlə, mənə elə gəlir ki, artıq bizim indiki inkişaf mərhələmizdə şübhənin doğurması mümkün deyildir. Şübhələr hamısı qısır qalacaqdır! İnanırıq ki, əlaqədar hüquq-mühafizə orqanları gələn il də Ramiz müəllimə bayıra çıxmağa, büdcəyə daraşmağa imkan verməyəcəkdir. (Pis çıxmasın, ona sözün bütün mənalarında bayıra çıxmaq qadağan edilsəydi, bəlkə daha məqsədəuyğun olardı).

Büdcə müzakirələri deputatlar və nazirlər arasında ünsiyyət imkanları baxımından da lazımlı prosedurdur, yoxsa onlar bir-birlərini axırıncı dəfə, söz vaxtına çəkər, elə keçən il bu vaxtlar görmüşdülər. Nəticədə bəzən deputatlar şikayət edirdilər, məsələn, Səyyad müəllim bir dəfə demişdi ki, hansısa nazir onun telefonuna 88 dəfə adboy vermişdir.

Təsəvvür edin. Görün nə qədər acı həsrətdir... Anar müəllimin “Sən, mən, telefon və Çingiz Abdullayev” romanında buna oxşar epizod var, qəhrəman zəng edir, götürən olmur, axırda öz-özünə danışır, bu vaxt küçədən keçən milis işçisi yaxınlaşır, deyir tələsmə, Zaur müəllim... Nəsə, ədəbiyyat vaxtı deyil, büdcə müzakirələri bitməlidir. Müdriklər demişkən, əvvəl mədə, sonra mədəniyyət. Qarın qardaşdan irəli olmalıdır. Qarınsız qardaş, ətsiz aş. Deputatlar büdcə asmış, büdcənin yağını az asmış...

Ət demişkən, Monqolustandan qoyun əti idxal etməyimizi eşitmişdim, lakin keçən həftə bunu canlı müşahidə edərək olduqca sevindim. Marketdə donmuş ətlər bölməsində kamali-ədəblə üzərinə “monqol qoyun əti” yazılmış babat bir şaqqa satılırdı. İnanırsınız, bunu görəndə qədim türk qanım qaynadı, elə sevindim, dondurucunun şüşəsini öpüb-qucaqladım. Az qalmışdı üzümün dərisi qopsun.

Tam səmimi sözlərimdir. “Monqol qoyun əti” məni ulu çağlarımıza, Çingizxan, Batı, Subedey, Hülaku xan, Gültigin abidələrinə qaytardı. Elə bildim marketdən çıxanda Biləcərinin kruqunu yox, Orxon-Yenisey abidələrini görəcəyəm. Ulusumuz var olsun, qurultayımız büdcə seçsin, özünə dönsün. Özünə dönəndə böyük olursan.

Bircə inək südünü yığışdırıb qımıs da satsalar lap razı qalardım. Gələn ilin büdcəsinə qazaxlardan at südü almağı daxil etməliyik.



# Azərbaycan-Suriya əlaqələrində “qızıl dövr”

## Bakı bu ölkənin regional oyunçu qismində siyasi arenaya qayıtmasına dəstək verir

**Sürətli geosiyasi dəyişikliklər fonunda Suriya on ildən artıqdır böhran içində olan iqtisadiyyatını dirçəltmək üçün yeni yollar axtarır. Əsas istiqamətlərdən biri enerji və qiymətli metallar sektorunda perspektivli tərəfdaş olan Azərbaycanla əməkdaşlıqdır. Bu barədə “The Media Line” xəbər verir.**

Bildirilir ki, Azərbaycan qazının Suriyaya tədarükü ilə bağlı memorandumun imzalanmasından sonra müzakirələr yeni səviyyəyə yüksəlib - əsas diqqət əlaqələrin bərpasına və genişmiqyaslı iqtisadi və siyasi əməkdaşlığa yönəlib.

2025-ci ilin iyulunda imzalanmış saziş gündə təqribən 3,4 milyon kubmetr qazın tədarükünü nəzərdə tutur və tədricən ildə 1-2 milyard kubmetrə yüksəlir. Bu həcmlər fəaliyyətsiz elektrik stansiyalarını yenidən işə salmağa və Suriyanın enerji sektorunun yükünü yüngülləşdirməyə kömək edəcək. Dəməşq üçün bu, iqtisadiyyatın şaxələndirilməsi və tək tərəfdaşdan asılılığın azaldılması istiqamətində bir addımdır. Layihə qızıl hasilatı sənayesinin bərpası və ixrac potensialının genişləndirilməsi proqramına uyğundur.

Yada salaq ki, Əsəd rejiminin süqutundan sonra bu ölkəyə ilk humanitar yardım göstərən, Suriyanın ərazi bütövlüyünə, suverenliyinə güclü dəstəyini ifadə edən ölkələrdən biri məhz Azərbaycan oldu. Azərbaycan Türkiyə ilə birlikdə Suriyanın münaqişədən sonrakı dövrdə inkişafına, bərpa-quruculuq prosesinə töhfə verməyə hazırlığını ifadə etdi. Eyni zamanda 12 illik fasilədən sonra ölkəmizin Dəməşqdəki diplomatik missiyası yenidən fəaliyyətə başladı. Prezident İlham Əliyevin tapşırığına əsasən bugünlərdə hökumətin yüksək səviyyəli nümayəndə heyəti Suriyada səfərdə olub, bu ölkədə bərpa-quruculuq işlərinə Azərbaycanın nə kimi dəstək verə biləcəyini araşdırıb.

Azərbaycan-Suriya əlaqələri, eyni zamanda ölkəmizin Yaxın Şərq siyasətinin bir hissəsidir. Bakının çoxşaxəli xarici siyasəti geniş coğrafiyanı - Avropa, Mərkəzi Asiya, Yaxın Şərq və s. regionları əhatə etməklə ona böyük nüfuz qazandırıb. Rəsmi Bakının bu siyasəti müstəqil, balanslaşdırılmış olmaqla, ədalət prinsipini, beynəlxalq hüququn normalarını üstün tutur. Prezident İlham Əliyevin bu siyasəti nəticəsində Azərbaycan Yaxın Şərq regionunda da etibarlı tərəfdaş olaraq qəbul edilir.

Beləliklə, qaz sazişi ilə başlayan iqtisadi əməkdaşlıq “qızıl dövrünə” keçir, üstəlik Bakı Suriyanın regional oyunçu kimi siyasi arenaya qayıtmasına dəstək verir.

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov “Yeni Müsavat”da hazırkı Suriya hökumətinin Azərbaycanla yaxın əlaqələr qurmaqda maraqlı olduğunu önə çəkdi:** “Suriya öz addımları ilə Azərbaycanla əlaqələrdə maraqlı olduğunu nümayiş etdirir. Keçid dövrünün prezidenti Əhməd əl Şaraanın Azərbaycana səfəri bunun bariz göstəricisidir. Ölkəmizin Suriya münaqişəsində neytral və barışdırıcı mövqe sərgiləməsi, eləcə də əvvəldən bu ölkənin ərazi bütövlüyünü dəstəkləməsi və ümumiyyətlə, bayaq da qeyd etdiyim kimi, aparılan siyasət Azərbaycanın Suriya üçün etibarlı tərəfdaş olduğunu nümayiş etdirib.

Ölkəmizin Suriyanın qaz təchizatındakı roluna gəldikdə isə deyim ki, hələ 2010-cu ildə, yəni Suriyada vətəndaş müharibəsinin başlamasından əvvəl Azərbaycan və Suriya arasında təbii qazın alqı-satqısına dair 20 illik razılaşma əldə olunmuşdu. Həmin razılaşmaya əsasən Suriya Azərbaycandan ildə 1-1,5 mlrd. kubmetr təbii qaz idxal edəcəkdi. Lakin Suriyada müharibə bu razılşamanın icrasına imkan vermədi.

İki ölkə arasında enerji sahəsində əməkdaşlıqla bağlı müzakirələr bir də Antalyada keçirilən Diplomatiya Forumunda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriya Prezidenti Əhməd əl-Şaraa arasında baş tutan görüşdə bərpa olundu. Həmin görüşdə Azərbaycan Dövlət Neft Şirkəti SOCAR-ın Suriyanın şərqindəki neft və qaz sahələrinin bərpasına dəstək verməsi məsələsi müzakirə olunmuşdu. Yəni başqa sözlə, Azərbaycanın Suriyanın qaz təchizatına dəstək verməsi özündə təkcə qaz satışını yox, həm də ölkəmizin bu sahədə təcrübəsi, texnoloji bacarıqları sahəsində Suriyanın işlək olmayan infrastrukturunu canlandırmasını ehtiva edir".

**Politoloq Züriyə Qarayevanın sözlərinə görə, Azərbaycan-Suriya münasibətlərində son aylarda müşahidə edilən yaxınlaşma Yaxın Şərqdə yeni geosiyasi mərhələnin formalaşdığını göstərir**: “Uzun illər davam edən müharibə və sanksiyalardan sonra Suriya üçün iqtisadi reabilitasiya və beynəlxalq əlaqələrin bərpası həyati əhəmiyyət daşıyır. Azərbaycan isə bu prosesdə həm enerji, həm də bərpa-quruculuq istiqamətində mühüm tərəfdaş rolunda çıxış etməyə başlayıb. İki ölkə arasında 2025-ci ilin iyulunda imzalanmış qaz sazişi münasibətləri sırf iqtisadi əməkdaşlıq səviyyəsindən strateji tərəfdaşlıq müstəvisinə keçirir. Gündə 3,4 milyon kubmetr qazın Suriyaya tədarükü ilə başlayan bu proses illik 1-2 milyard kubmetr həcmə qədər genişlənə bilər ki, bu da Dəməşqin enerji sisteminin yenidən fəaliyyətə başlamasına və sənaye sektorunun dirçəlməsinə şərait yaradacaq. Bu addım Suriyanın uzun illər ərzində enerji asılılığını azaltmaq, həmçinin xarici investisiyaları cəlb etmək niyyətinin göstəricisidir. Azərbaycanla əməkdaşlıq Dəməşq üçün təkcə enerji təminatı deyil, həm də regional iqtisadi inteqrasiyaya qayıdış imkanıdır. Eyni zamanda layihə qızıl və digər qiymətli metalların hasilatı sahəsində birgə fəaliyyətə zəmin yaradır. Suriyanın son dövrlər bu sahədə həyata keçirdiyi bərpa proqramı Azərbaycanın texnoloji təcrübəsi və resurs potensialı ilə uzlaşır. Beləliklə, iqtisadi əməkdaşlıq siyasi yaxınlaşmanı da sürətləndirir və iki ölkənin qarşılıqlı maraqlarını möhkəmləndirir. Azərbaycan tərəfi üçün bu əməkdaşlıq həm də Yaxın Şərq regionunda nüfuzun genişlənməsi baxımından mühüm geosiyasi qazancdır. Bakı uzun müddətdir balanslaşdırılmış və çoxtərəfli diplomatiya xəttini davam etdirir. Azərbaycanın həm Türkiyə, həm ərəb ölkələri, həm də Qərb və Rusiya ilə paralel şəkildə əməkdaşlıq qurması onun xarici siyasətini sabit və etibarlı edir. Bu mənada, Suriyanın yenidənqurma prosesinə cəlb olunmaq Azərbaycanın regionda etibarlı tərəfdaş obrazını daha da gücləndirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan müstəqil xarici siyasət modeli burada özünü bir daha göstərir - Bakı siyasi maraqlar uğrunda deyil, qarşılıqlı fayda və suverenliyə hörmət prinsipləri əsasında əməkdaşlıq təklif edir.

Suriyanın siyasi reabilitasiyasına və iqtisadi dirçəlişinə dəstək verən ölkələr sırasında Azərbaycanın olması Dəməşq üçün həm psixoloji, həm də diplomatik cəhətdən mühüm əhəmiyyət kəsb edir. 12 ildən sonra Azərbaycanın Dəməşqdəki diplomatik missiyasının fəaliyyətinin bərpası bu istiqamətdə atılmış ən vacib addımlardan biridir. Bu, təkcə diplomatik jest deyil, həm də real siyasi mesajdır. Bakı regionda sabitlik və inkişafın tərəfdarıdır. Nəticə etibarilə, Azərbaycan-Suriya əlaqələri artıq yeni mərhələyə qədəm qoyur. Qaz sazişi ilə başlanan bu əməkdaşlıq tədricən enerji təhlükəsizliyi, sənaye bərpası, infrastruktur və mədəni diplomatiya istiqamətlərini də əhatə edən çoxşaxəli tərəfdaşlığa çevrilir. Bakı Suriyanın regional siyasətdə yenidən aktiv oyunçuya çevrilməsini dəstəkləməklə həm öz geosiyasi mövqelərini möhkəmləndirir, həm də Yaxın Şərqdə ədalət və əməkdaşlıq prinsiplərinə əsaslanan yeni diplomatik nizamın formalaşmasına töhfə verir. Bu proses, şübhəsiz ki, hər iki ölkə üçün “qızıl dövr” adlandırıla biləcək yeni reallığın başlanğıcıdır".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**



# Azərbaycan sülhməramlıları bu qərarı gözləyir

## ABŞ BMT Təhlükəsizlik Şurasına Qəzza barədə qətnamə layihəsi təqdim edib

**Noyabrın 3-də ABŞ rəsmiləri BMT Təhlükəsizlik Şurasında bir neçə ölkəyə Qəzza zolağında ən azı iki il müddətinə beynəlxalq sabitləşdirmə qüvvələrinin yaradılmasını nəzərdə tutan qətnamə layihəsi təqdim ediblər. Ayna.az xəbər verir ki, bu barədə "Axios" məlumat yayıb.**

Nəşrin məlumatına görə, qətnamə layihəsi "ABŞ-yə və digər iştirakçı ölkələrə Qəzza zolağını idarə etmək və 2027-ci ilin sonuna qədər təhlükəsizliyi təmin etmək üçün geniş səlahiyyətlər verir, lakin uzadılma ehtimalı var".

ABŞ rəsmisi sənədin yaxın günlərdə BMT Təhlükəsizlik Şurası tərəfindən müzakirə olunacağını bildirib. Ağ Ev administrasiyası qətnamənin daha sonra səsverməyə çıxarılmasını və beynəlxalq qüvvələrin Fələstin anklavına yerləşdirilməsinin yanvar ayına qədər başlamasını istəyir.

Qətnamə layihəsi "Qəzza zolağının İsrail və Misirlə sərhədlərinin təhlükəsizliyini təmin edəcək, mülki şəxsləri və humanitar dəhlizləri qoruyacaq və əməkdaşlıq edəcəkləri yeni Fələstin polis qüvvələrini yetişdirəcək" beynəlxalq qüvvələrin yaradılmasını nəzərdə tutur. Bu qüvvələr həmçinin "Qəzza zolağının silahsızlaşdırılması, o cümlədən hərbi, terrorçu və hücum infrastrukturunun məhv edilməsi və yenidən qurulmasının qarşısının alınması", eləcə də anklavda fəaliyyət göstərən qrupların silahlarının müsadirə edilməsindən məsul olacaqlar.

Yada salaq ki, rəsmi Bakı ABŞ-nin istəyi əsasında Azərbaycan hərbçilərinin Qəzzada sabitlik qüvvələrinin tərkibində iştirakı üçün BMT Təhlükəsizlik Şurasının qərarına ehtiyac olduğunu bildirib. Yəni beynəlxalq qüvvələrin legitimliyi və mandatı olmalıdır.



**Layihə Qəzza zolağına beynəlxalq qüvvələrin yerləşdirilməsini nəzərdə tutur**

"İsrail-Hayom" qəzetinin məlumatda bildirilir ki, Qəzzaya göndəriləcək sülhməramlıların özəyini Azərbaycan və İndoneziya təşkil edə bilər. İndoneziyanın sülhməramlı qüvvələrdə iştirak təcrübəsi böyükdür. İndoneziya təkid edir ki, missiyada yalnız BMT-nin Təhlükəsizlik Şurasının qərarı olacağı təqdirdə iştirak edəcək. "İsrail Hayom" yazır ki, HƏMAS Qəzzada qaldıqca Azərbaycan qoşunları oraya girməyəcək. Qəzetin yazdığına görə, İndoneziya, Azərbaycan, İordaniya və Mərakeş də daxil olmaqla, Qəzza zolağında beynəlxalq sabitləşdirmə qüvvələrinin potensial iştirakçıları HƏMAS silahlı strukturlarını saxladığı müddətdə qoşun göndərməyə hazır deyillər.

Qeyd edək ki, bu münaqişəni həll etmək üçün ilk cəhdlər 1947-ci ildə Birləşmiş Millətlər Təşkilatının Fələstin üçün Bölmə Planında ön əksini tapıb. Lakin sənəd iki tərəf arasında problemlərin daha da alovlanmasına səbəb olub. Nəticədə 1947-1949-cu illəri əhatə edən İsrail-Fələstin müharibəsi başlayıb. Həmin müharibədən sonra müəyyən sakitlik dövrü olsa da, 1967-ci ildə altı günlük İsrail-Fələstin müharibəsi baş tutub. 2023-cü ilin 7 oktyabr tarixində HƏMAS-ın başçılıq etdiyi fələstinli silahlı qruplar tərəfindən Qəzza zolağından İsrailə qarşı başladılmış genişmiqyaslı hücum olub. İsrail cavab olaraq iki il anklavda qətliamlar həyata keçirib.

Qeyd edək ki, Azərbaycan Ordusunun sülhməramlı kontingenti 1999-cu ildən etibarən sülhməramlı əməliyyatlarda iştirak etməkdədir. Belə ki, 1999-cu ilin sentyabr ayından 2008-ci ilin mart ayınadək Azərbaycan Ordusunun sülhməramlı taqımı NATO-nun rəhbərliyi altında Kosovoda sülhün yaradılması və dəstəklənməsi üzrə keçirilən əməliyyatlarda iştirak edib.

Azərbaycan sülhməramlı bölüyü 2003-2008-ci illərdə 152 nəfərlik şəxsi heyətlə İraqda beynəlxalq koalisiya qüvvələri tərkibində xidmət edib. 2009-cu il tarixdə Azərbaycan Ordusundan 90 nəfərlik sülhməramlı kontingenti Əfqanıstanda Türk taboru tərkibində fəaliyyət göstərib. Azərbaycan Ordusunun sülhməramlı qüvvələri 27 avqust 2021-ci ildə ölkəyə geri dönüb. Hazırda Azərbaycanın hər hansı xarici ölkə ərazisində sülhməramlı qüvvələri fəaliyyət göstərmir.

❑ **"Yeni Müsavat"**

# Trampın oğlu İrəvandan Bakıya niyə gəlmir?

## Sabiq nazir səbəbi açıqladı: "Onun səfər etməməsində bu məqam rol oynaya bilər"

**Ermənistan noyabrın 12-də ABŞ prezidentinin oğlu kiçik Donald Trampın səfərini gözləyir. Ermənistan mətbuatının məlumatına görə, səfər zamanı iki əsas mövzu ətrafında müzakirələr aparılacaq. Birincisi, Amerika biznesinin "TRİPP Marşrutu"nun (Zəngəzur dəhlizi) tikintisində iştirakının rəsmiləşdirilməsi və bu nəqliyyat arteriyasının ABŞ şirkəti tərəfindən idarə olunması ilə bağlıdır. Bakı artıq Cənub Qaz Dəhlizindən tutmuş Transxəzər təşəbbüsünə qədər mürəkkəb enerji və infrastruktur layihələrini uğurla həyata keçirdiyini sübut edib. İndi bu xəritəyə yeni bir xətt əlavə olunur - Zəngəzur dəhlizi, amerikalıların terminologiyasında TRIPP - Trump Route for International Peace and Prosperity. TRIPP, Çinin "Kəmər və yol" layihəsinə geoiqtisadi alternativ kimi nəzərdə tutulur. O, Azərbaycan və Naxçıvan üzərindən Xəzəri Şərqi Aralıq dənizi ilə birləşdirərək Mərkəzi Asiya ilə Avropa arasında ən qısa yük marşrutu olmalıdır. Vaşinqton ilkin mərhələ üçün Ermənistana 145 milyon dollar ayırır, lakin əsas rol Bakıya məxsusdur. Azərbaycan yalnız marşrutun şimal və cənub girişlərinə nəzarət etmir, həm də paralel İran layihəsi - "Araz dəhlizi"ndə iştirak edir. Beləliklə, ölkə eyni anda üç gücün - ABŞ, İran və Türkiyənin maraqları ilə ziddiyyətə girmədən iki strateji sxemdə iştirak üstünlüyünə malik olur. İkinci mövzu isə kiçik Donald Trampın şirkətlərindən biri ilə erməni tərəfi arasında pilotsuz uçuş aparatlarının tədarükü üçün böyük müqavilənin hazırlanması ilə bağlıdır.**



47 yaşlı kiçik Trampla Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün planlaşdırılıb-planlaşdırılmadığı hələlik məlum deyil. Bildirilir ki, səfəri çox güman ki, Ermənistanın ABŞ-dəki yeni səfiri Narek Mkrtçyan təşkil edir. Kiçik Donald Tramp sahibkardır. O, bacısı İvanka Tramp və qardaşı Erik Trampla birlikdə atasının şirkətində işləyir, icraçı vitse-prezident vəzifəsində çalışır.

ABŞ Dövlət Departamenti oktyabrın 29-da bəyan edib ki, ABŞ hakimiyyəti ilin sonuna qədər Vaşinqton razılaşmalarını həyata keçirmək üçün Ermənistan və Azərbaycanla ilk birgə işçi qrupları yaratmaq niyyətindədir. TRIPP layihəsinin ümumi dəyəri təxminən 300 milyon dollar qiymətləndirilir. Bunun 140 milyon dolları ABŞ tərəfindən ayrılıb, lakin qalan 160 milyon dolların mənbəyi hələ müəyyən edilməyib.

Vaşinqton çox yaxşı anlayır ki, Bakı olmadan regional marşrutların heç biri işləməyəcək. Azərbaycan əsas kommunikasiya nöqtələrini - limanları, dəmir yolu qovşaqlarını, enerji magistrallarını, Ələt və Sanqaçal logistika mərkəzlərini nəzarətində saxlayır. Bu infrastruktur artıq beynəlxalq şəbəkələrə inteqrasiya olunub, onları kənardan keçmək texniki və iqtisadi baxımdan mənasızdır. World Bank və McKinsey-nin hesablamalarına görə, TRIPP marşrutunun reallaşması Mərkəzi Asiya ilə Avropa arasındakı ticarət dövriyyəsini beş il ərzində 35 faiz artıra, Azərbaycanın tranzit gəlirlərini isə illik üç milyard dollara çatdıra bilər. Zəngəzur dəhlizi birbaşa Azərbaycanla bağlı məsələ olduğu üçün Trampın oğlunun Bakıya da gəlməsi məqsədəuyğun olardı. Lakin onun Bakıya səfər edəcəyi barədə rəsmi məlumat yoxdur. Trampın oğlu İrəvandan niyə Bakıya gəlmir? Azərbaycan tərəfinin prosesi uğurla apardığına əminlik, arxayınlıq, Ermənistan tərəfinin isə zəif bənd olmasından narahatlıq burada rol oynaya bilərmi?

**"Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri, sabiq maliyyə naziri Fikrət Yusifov** "Yeni Müsavat"a bildirdi ki, ABŞ prezidentinin oğlunun Ermənistana səfəri ilk növbədə Zəngəzur dəhlizi üzərindən "Tramp yolu"nun açılması istiqamətində işlərlə bağlı ola bilər. Bu səfərin bir başqa hədəfi də ticarət əlaqələri qurmağı hədəfləyir: "ABŞ-dən Ermənistana hansı pilotsuz uçuş aparatlarının göndərilməsi ilə bağlı məsələ isə bir qədər düşündürücüdür. Ermənistan yenə də silahlanmaqda davam edirmi? ABŞ-də istehsal olunan pilotsuz uçuş aparatlarının hərbin bu sahədəki ən son nailiyyətləri əsasında istehsal edildiyini nəzərə alsaq, o halda ortaya suallar çıxır - Ermənistan bu silahlardan kimə qarşı istifadə etməyi düşünür? Biz əgər Ermənistanla sülh müqaviləsi bağlamağın bir addımlığındayıqsa, o halda kasıb Ermənistanın böyük pulları hesabına ən müasir silahları almaqda məqsədi nədir?

Heç şübhəsiz ki, Birləşmiş Ştatların rəsmilərinin yaxın gələcəkdə Zəngəzur dəhlizindən keçəcək "Tramp yolu" ilə bağlı Azərbaycana səfərləri olacaq. Lakin Ağ Evdə yaxşı bilirlər ki, Ermənistandan fərqli olaraq, Azərbaycan dəhlizin açılması üçün öz üzərinə düşən işlərin böyük əksəriyyətini tamamlayıb. Kiçik Trampın bu dəfə Bakıya səfər etməməsində bu məqam rol oynaya bilər. Bu mənada indi ABŞ administrasiyasının diqqəti daha çox Ermənistan tərəfdə yolun çəkilişi ilə bağlı proseslərin başlanmasına rəvac verməkdir. Düşünürəm ki, kiçik Donald Trampın Ermənistan səfərinin əsas hədəfi də budur".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**




## Aİ-95 bahalaşmayacaq

### Azərbaycan bu markalı yanacağın istehsalını dayandırmayacaq

**Vergi Məcəlləsinə təklif olunan dəyişikliyə görə, 2026-cı ildən avtomobil benzini, dizel yanacağı və maye qazın dəyərinə əlavə olunan (hər litr üçün) 2 qəpik yol vergisi 7 qəpik olacaq. Həmçinin büdcə layihəsində qeyd olunub ki, gələn il Azərbaycanda Aİ-95 istehsal edilməyəcək.**

Sözügedən qərarın Azərbaycanın benzin bazarına necə təsir edəcəyi, qiymətlərin artmasına səbəb olub-olmayacağı indidən müzakirə mövzusudur.

Məsələ ilə əlaqədar Modern.az-a danışan iqtisadçı Eldəniz Əmirov bildirib ki, əksər ölkələrdə benzinin qiyməti ilə neft qiymətləri adekvat və düzmütənasibdir: “Əksər ölkələrdə benzinin qiyməti ilə neft qiymətləri adekvat və düzmütənasibdir. Yəni neftin qiyməti qalxdıqda benzinin də qiyməti qalxır, əksinə, neft ucuzlaşdıqda benzin də ucuzlaşır. Önümüzdəki ildə neft qiymətinin artacağı proqnoz edilmir, bu səbəbdən də Aİ-95 markalı benzinin qiymətinin artması ehtimalı çox aşağıdır”.

Avtomobil benzini, dizel yanacağı və maye qazın dəyərinə əlavə olunan (hər litr üçün) 2 qəpik yol vergisinin 7 qəpiyə qalxması ilə bağlı isə iqtisadçı bunları deyib: “Bu, 250%-lik bir artımdır. Düzdür, o qədər də böyük rəqəm olmasa da, faiz etibarilə böyük bir göstəricidir. Hesab edirəm ki, bu faktorun qiymətə təsir edib-etməyəcəyi ilə bağlı birmənalı şəkildə nəsə demək bir qədər risklidir. 5 qəpiklik artım ehtimalı mümkündür. Amma digər tərəfdən, neftin qiymətində enişləri və benzin istehsalında maya dəyərinin aşağı düşməsi vergidəki 5 qəpik artımı kompensasiya edə bilər. Bütün hallarda benzinin də qiymətinin növbəti il qalxmama ehtimalı olduğundan buna bir fürsət var. Amma qərarın necə veriləcəyi ilə bağlı konkret söz demək indiki halda mümkün deyil. Qiymətlərin tənzimlənən olması, yəni iqtisadiyyatın özü tənzimləmədiyindən qərarvericilərin hansı qərarı verməsi barədə konkret fikir söyləmək mümkün deyil”.

2026-cı ildə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Heydər Əliyev adına Neft Emalı Zavodunda “Ai-92" və "Ai-95" markalı benzin istehsalı davam etdiriləcək. Bu barədə isə “Report”un sorğusuna cavab olaraq bəzi media resurslarında gələn ildə Heydər Əliyev adına Neft Emalı Zavodunda “Ai-95" markalı benzin istehsalının məhdudlaşdırılacağı ilə bağlı dərc olunan məlumatlara aydınlıq gətirilərkən bildirilib.

Məlumatda deyilir ki, Heydər Əliyev adına Neft Emalı Zavodunda hazırda tətbiq olunan istehsal prosesləri çərçivəsində Avropa standartlarına (“Avro-5") uyğun "Ai-92" və "Ai-95" markalı benzin istehsalı həyata keçirilir.

Qeyd edilib ki, zavodda tətbiq olunan müasir texnologiyalar və yenilənmiş istehsal infrastrukturu istehlakçılara yüksək keyfiyyətli və ekoloji standartlara cavab verən yanacaq təqdim edilməsinə imkan yaradır.

❑ “Yenì Müsavat”

# Naxçıvanın “simvolu”nun yoxa çıxmasının səbəbi bilindi

### Muxtar respublika rəhbərliyi Duzdağ mədəninin istismarını özəl şirkətlərdən birinə həvalə etmək istəyib, amma yerli və türkiyəli iş adamlarından heç biri bu yükün altına girmək istəməyib

**Son aylarda Naxçıvanda qaya duzunun qıtlığı gündəmin əsas mövzularından birinə çevrilib. “Duz dağı” ilə tanınan bu qədim diyarın sakinləri indi yerli duz tapmaqda çətinlik çəkirlər. Əvvəllər kilosu 60-80 qəpiyə satılan Naxçıvan duzu indi bazarlarda görünmür, “əl altından” isə iki manata təklif olunur. Halbuki bu məhsul uzun illər Naxçıvanın brendi, yerli iqtisadiyyatın dayanıqlı mənbələrindən biri hesab edilirdi.**

Mövcud vəziyyətin başlanğıcı 2025-ci ilin mayında “Naxçıvan Duz İstehsalı” MMC-nin özəlləşdirilməsindən sonra yaranıb. Müəssisənin özəlləşdirilməsi “Şərq-Qərb” ASC-yə məxsus tender vasitəsilə həyata keçirilib. Bakı-xeber.com yazır ki, bu şirkətin 96 faiz payının Ramiz Mehdiyevin oğlu Teymur Mehdiyevə məxsus olduğu bildirilir. Özəlləşdirmə gözlənildiyi kimi istehsalı gücləndirmədi, əksinə, müəssisədə idarəetmə böhranı, daxili çəkişmələr və istehsalın dayanması ilə nəticələndi.




Yeni rəhbərlik istehsalı dayandırmağı texniki modernizasiya və avadanlıqların yenilənməsi ilə əsaslandırır. Lakin yerli sakinlər və iqtisadi müşahidəçilər bu versiyaya inanmır. Onların fikrincə, problem daha çox iqtisadi nəzarət uğrunda gedən mübarizə ilə bağlıdır. Duz mədənləri gəlirli sahə olduğundan, bir neçə yerli biznes qrupu və siyasi dairə arasında nəzarət savaşı başladığı ehtimal edilir. Bu qeyri-müəyyənlik istehsalın iflic vəziyyətə düşməsinə səbəb olub.

Hazırda Naxçıvanda yalnız bir neçə kiçik müəssisə məhdud miqdarda duz istehsal edə bilir və bu məhsulun əsas hissəsi Bakıya göndərilir. Nəticədə yerli bazarda qıtlıq yaranıb, idxal olunan duzlar - Türkiyə, Gürcüstan və Masazır istehsalı - Naxçıvan dükanlarını doldurub. Bu məhsulların həm dad, həm də keyfiyyət baxımından fərqli olması sakinlərin narazılığını artırır. Onlar bildirirlər ki, Naxçıvan duzunun tərkibi və dadı tamam fərqli idi, dəniz duzuna öyrəşmək isə çətindir.

Naxçıvanın duzu təkcə iqtisadi məhsul deyil, həm də bölgənin simvoludur.

**Siyasi şərhçi Heydər Oğuz** “Yeni Müsavat”a deyib ki, onda olan məlumata görə, Naxçıvan rəhbərliyi Duzdağ mədəninin istismarını özəl şirkətlərdən birinə həvalə etmək istəyib, amma yerli və türkiyəli iş adamlarından heç biri bu yükün altına girmək istəməyib: “Çünki Vasif Talıbovun dövründə köhnə texnologiya ilə başdansovdu qurulan bu müəssisənin avandanlıqları başdan-ayağa dəyişdirilməli, müasir texnologiyalı qurğular quraşdırılmalıdır. Bu da böyük xərc tələb etdiyindən iş adamları siyasi perspektivinə inanmadığı muxtar respublikaya investisiya yatırmaqdan çəkinir. İnvestor tapılmadığından müəssisənin təmiri dayanıb və nə zaman işə salınacağı bilinmir”.

**Heydər Oğuz onu da vurğuladı ki, Duzdağ muxtar respublikanın İqtisadi İnkişaf Nazirliyinin balansındadır və heç kim onu özəlləşdirə bilməz. Həmsöhbətimizin iddiasına görə, 2 il əvvəl özü şəxsən Duzdağ mədənində olub və orada qurulan fabrikin işi ilə maraqlanıb:** “Hələ 2 il əvvəl də Naxçıvan rəhbərliyi bu müəssisəni yenidən qurmaq barədə düşünürdü. Çünki fabrikdə duzu gildən ayırma sistemi yox idi. Mədəndən çıxarılan sal daşlar qurğudan keçərkən üyüdülsə də, sal daşların tərkibindəki gili duzdan ayırmaq mümkün deyildi. Mütəxəssislərin dediyinə görə, sal daşların tərkibindəki gil də normadan xeyli artıq idi. Haradasa, onların 40 faizi gildən ibarət idi. Duzu gildən təmizləmədən paketləmək istehlaka yararsız məhsulun bazara çıxarılması anlamına gəlirdi. Orada olarkən, müəssisənin avadanlıqlarını istehsal edən Türkiyə şirkətinin rəhbərliyinə telefon açıb onun mövqeyini soruşmuşdum. Türk şirkətinin rəhbəri mənə demişdi ki, necə sifariş veriblərsə, biz də avadanlığı o şəkildə hazırlamışıq. Adam Naxçıvan duzunda 40 faiz gil qarışığı olduğunu da ilk dəfə məndən eşitmiş və buna xeyli təəccüblənmişdi. Bildirmişdi ki, əgər elədirsə, deməli, duzu üyüdən avadanlığa yeni aqreqat əlavə olunmalı və sal daşlar üyüdüldükdən sonra bu yeni aqreqat vasitəsilə duz yuyularaq gildən ayrılmalı, sonra isə qurudularaq paketlərə doldurulmalıdır. Belə başa düşmüşdüm ki, Duzdağ mədəninə effektiv işləməsi üçün xeyli xərc çəkilməlidir. Yəqin bu səbəbdən də Naxçıvanda fəaliyyət göstərən heç bir iş adamı müəssisəyə tələb olunan xərci çəkmək istəmir, bu səbəbdən də duz istehsalı dayanıb”.

❑ E.MƏMMƏDƏLİYEV,
“Yenì Müsavat”

# Bu rayonlar büdcədən dotasiya almayacaq

### Nazir Naxçıvan Muxtar Respublikasına dotasiyaların azalmasının səbəbini açıqlayıb

**2026-cı ildə 66 rayon və şəhər dövlət büdcəsindən dotasiya almadan fəaliyyət göstərəcək. Bu, “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsində öz əksini tapıb. Qanun layihəsinə əsasən, gələn ildən ölkənin əksər şəhər və rayonları öz maliyyə dayanıqlığını təmin edəcək.**



Sənəddə qeyd olunur ki, Xocavənd rayonu istisna olmaqla, Azərbaycanın qalan 66 şəhər və rayonu 2026-cı ildə öz xərclərini dövlət büdcəsindən maliyyə yardımı (dotasiya) almadan, yalnız daxili gəlirləri hesabına qarşılayacaq.

Dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına dotasiyaların azalmasının səbəbi də açıqlanıb. Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı maliyyə naziri Sahil Babayev məlumat verib.

Nazir deyib ki, növbəti il Naxçıvanın Muxtar Respublikasının gəlirləri 52 milyon manat və ya 24% artır, xərclər isə 22 milyon manat azalır: “Nəticədə Naxçıvana dotasiya məbləği 74 milyon manat azalıb. Bu da Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatların bariz nəticəsidir”.

Yeri gəlmişkən,2026-cı ildə yerli büdcələrin gəlirləri 758 milyon manata çatacaq. Ən çox və ətraf mühitin mühafizəsinə yönəldiləcək.

Sənədə əsasən, 2026-cı il üçün yerli gəlirlər 758,3 milyon manat, yerli xərclər isə 759,1 milyon manat məbləğində nəzərdə tutulur.

**Yerli xərclərin əsas istiqamətləri aşağıdakı kimi bölüşdürüləcək:**

246,8 milyon manat (32,5%) - ətraf mühitin mühafizəsi, sanitar təmizlik və abadlaşdırılma xidmətlərinin ödənilməsi;

218,6 milyon manat (28,8%) - icra hakimiyyəti orqanlarının saxlanılması;

212,1 milyon manat (27,9%) - mənzil və kommunal təsərrüfatı xərcləri;

47,1 milyon manat (6,2%) - nəqliyyat və rabitə xərcləri (o cümlədən yolların əsaslı təmiri üçün 46,3 milyon manat);

15,5 milyon manat (2,0%) - kirayədə yaşayan hərbi qulluqçulara, o cümlədən ehtiyatda və istefada olanlara pul kompensasiyası;

5,7 milyon manat (0,8%) - mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və gənclər siyasəti sahələri;

13,3 milyon manat (1,8%) - digər istiqamətlər üzrə xərclər.

**İqtisadi təsnifata uyğun olaraq, 2026-cı il üçün yerli xərclərin strukturu belə müəyyən edilib:**

Əməyin ödənişi xərcləri - 51,9% (394,1 milyon manat);

İş və xidmətlərin alınması - 29,5% (223,9 milyon manat);

Malların satın alınması - 3,0% (22,5 milyon manat);

Qeyri-maliyyə aktivlərinə yönələn xərclər - 15,1% (115 milyon manat);

Subsidiyalar - 0,1% (0,9 milyon manat);

Sosial ödənişlər - 0,4% (2,7 milyon manat).

❑ “Yenì Müsavat”

YENİ MÜSAVAT
N 201 (8811) 5 noyabr 2025

# Kino Agentliyində yeni qalmaqal

## Şeyx Əbdül: "Tahir Tahirovun cəsarət edib belə ifadələr işlətməsi yolverilməzdir"



**Tanınmış rejissor Tahir Tahirov Kino Agentliyini tənqid edib.**

Sosial şəbəkə hesabında paylaşdığı qeydlərində adıçəkilən qurumu qeyri-obyektivlikdə suçlayıb: "Oktyabrın 31-də Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Respublikasının Kino Agentliyində (ARKA) 2025-ci il üzrə "Dövlət dəstəyi ilə istehsal ediləcək film layihələri" müsabiqəsinin nəticələrinə dair Apelyasiya Komissiyasının yekun iclası keçirilib. Bu iclas bir çox kino ictimaiyyəti üçün maraqla gözlənilirdi. Çünki bir sıra studiyalar və yaradıcı qruplar müsabiqənin nəticələri ilə razılaşmayaraq qərarlara apelyasiya şikayəti veriblər. Onlar ümid edirdilər ki, bu mərhələdə ən azı dinləniləcək, arqumentlərini izah etmək imkanı qazanacaqlar. Lakin maraqlı və eyni zamanda narahatedici məqam odur ki, apelyasiya verən şirkət nümayəndələri həmin iclasa dəvət olunmayıblar. Yeni qərarların yenidən nəzərdən keçirilməsi prosesi onların iştirakı olmadan baş tutub".

**Tahir Tahirov vurğulayıb ki, bu, suallar doğurur**: "Əgər Apelyasiya Komissiyasının məqsədi şikayətlərin ədalətli və şəffaf şəkildə araşdırılmasıdırsa, onda şikayətçilər niyə dinlənilmir? Müzakirə qapalı keçirilirsə, obyektivliyin meyarı necə müəyyən olunur? Əgər bu proses "gizli iclas" prinsipi ilə aparılırsa, o zaman ictimai və peşəkar nəzarət mexanizmi haradadır? Əgər dövlətin dəstək mexanizmi şəffaf olmasa, əgər yaradıcılar dinlənilməsə, o zaman ədalətli rəqabətdən və inkişafdan danışmaq çətindir. Dövlətin mədəniyyətə və kinoya dəstəyi böyük və dəyərlidir. Amma bu dəstək şəffaflıq və ədalət prinsipləri ilə müşayiət olunmadıqca, onun təsiri cəmiyyət tərəfindən qəbul edilməyəcək".

O vurğulayıb ki, Azərbaycan kinosu dialoqa, açıq qərarlara və ədalətli sistemə layiqdir. Kino Agentliyinə yeni baş direktor bu ilin aprelində təyin edilib. Mədəniyyət naziri Adil Kərimlinin müvafiq əmri ilə Rəşad Əzizov təyinat alıb. 2022-23-cü illərdə - Milan Politexnik Universitetində - Dövlət qulluğunda süni zəkanın istifadəsi üzrə magistr dərəcəsi alıb. R.Əzizov son təyinatadək Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri vəzifəsində çalışıb.

Bəs dövlət dəstəyi ilə film layihələrinin seçimi hansı prinsiplərlə həyata keçirilməlidir ki, şəffaflıq təmin olunsun? Azərbaycanda film müsabiqələrinin nəticələrinə etirazların artması kino sistemində hansı dərin problemlərin göstəricisidir?

**Mövzu ilə bağlı Xalq artisti, kinorejissor, Agentliyin yanında fəaliyyət göstərən Bədii Şuranın üzvü Şeyx Əbdül Mahmudov "Yeni Müsavat"a danışıb. Xalq artisti səslənən fikirlərə kəskin etiraz edib:** "Tahir Tahirovun cəsarət edib Kino Agentliyinin arxasınca belə ifadələr işlətməsi yolverilməzdir. ARKA bizim təşəbbüsümüzlə yaradılıb və Prezidentin sərəncamı ilə rəsmi kino məsələlərini peşəkar səviyyədə həll edir. Təbii ki, biz istərdik ki, bu, ayrıca, müstəqil bir qurum kimi fəaliyyət göstərsin. Lakin bildiyiniz kimi, o, Mədəniyyət Nazirliyinin tərkibindədir. Nazirlik isə qətiyyən heç bir əngəl törətmir, əksinə, kino ilə bağlı nə lazımdırsa, hər zaman dəstək verir. Nazirliyin mövqeyi ondan ibarətdir ki, gəlin kinostudiyanı bərpa edək, peşəkar kinonu dirçəldək. Bu, çox vacib məsələdir. O ki qaldı ARKA-nın dalınca danışanlara, bizdə belə bir söz var: "Pişiyin ağzı ətə çatmayanda deyir ki, iylənib". ARKA haqqında danışanlar gərək əvvəlcə öz savadlarını, intellekt səviyyələrini artırsınlar. Bir də yaxşı fikirləşsinlər ki, kino mədəniyyətimizə, kino salnaməmizə onların nə qədər aidiyyəti var. Ondan sonra danışsınlar. Kino bizim milli mədəniyyətimizin mühüm bir parçasıdır, burada məsuliyyətsiz və səthi fikirlərə yer yoxdur".

**Xalq artisti əlavə edib ki, hazırda kinostudiyanın bərpası istiqamətində dövlət səviyyəsində ciddi işlərə start verilib:** "Kinostudiya mütləq bərpa olunmalıdır və deyim ki, dövlət səviyyəsində bu iş görüləcək. Artıq çox ciddi hazırlıq işləri gedir. Ölkəmizdə Ayaz Salayev, Ramiz Həsənoğlu kimi peşəkar kino adamları var. Eyni zamanda gənc, istedadlı kino xadimlərimiz də yetişir. Yəni söhbət peşəkar kino məktəbindən gedir. Ona görə də mən səslənirəm ki, kimlərsə ara qarışdırıb, su bulandırmasınlar. Hər kəs başını salıb işini görsün. Kino sahəsində birliyə, həmrəyliyə ehtiyac var".

**"Kino Agentliyinin yeni baş direktoru Rəşad Əzizovun fəaliyyətindən razısınızmı" sualına isə xalq artisti belə cavab verib:** "Təşkilati və rəhbərlik məsələsinə gəldikdə, məncə, fərqi yoxdur həmin şəxs o sahənin adamıdır, ya yox. Əsas məsələ onun təşkilatçılıq bacarığı, idarəçilik qabiliyyəti və yaradıcı yanaşmasıdır. Əgər rəhbər şəxs işlədiyi sahədə peşəkar insanlara dəstək verir, onlarla məsləhətləşir, birgə plan qurur və görülən işləri düşünülmüş şəkildə həyata keçirirsə, bunun nəyinə pis demək olar? Məncə, bu, ən doğru yanaşmadır. Kino bilən, təcrübəli insanlara nə qədər çox dəstək verilirsə, nəticə də bir o qədər yüksək olur. Rəşad Əzizov heç bir addımı məsləhətsiz atmır, hər şeyi planlaşdırır, ölçüb-biçib qərar verir. Bu da onun peşəkarlığından xəbər verir. Mən onun fəaliyyətindən razıyam. Yəqin ki, Tahir Tahirovun bu işlərdən xəbəri yoxdur. Əgər xəbəri olsaydı, belə narahatlıq keçirməzdi. Çünki kino sahəsində əvvəllər görülən işlər bu qədər sistemli və məqsədyönlü olmayıb".

**Şeyx Əbdül agentliyə təqdim olunan kino layihələrinin keyfiyyəti ilə bağlı da danışıb:** "İlk növbədə onu qeyd edim ki, filmlər ARKA-ya, yəni Bədii Şuraya təqdim olunanda rəhbərlik bu prosesə müdaxilə etmir, heç yaxın da durmur. Məsələyə birbaşa biz şura üzvləri baxırıq. Əgər təqdim olunan material bizi qane edirsə, ona dəstək veririk, qane etmirsə, təbii ki, kömək edə bilmirik. Ola bilər ki, kimlərsə öz materiallarını hər vəchlə qəbul etdirməyə çalışsın, amma bu, mümkün deyil. Bir daha vurğulayıram ki, Bədii Şura çox nüfuzlu və təcrübəli şəxslərdən ibarətdir. Gələn ssenarilərin və layihələrin qəbulu sırf rəsmi qaydada, şura müzakirəsi yolu ilə həyata keçirilir. Özfəaliyyətlə məşğul olanlar, sistemdən kənar işləmək istəyənlər isə heç vaxt istədiklərinə nail ola bilməzlər.

Hazırda mən kino camiəsində təcrübəli, peşəkar ən yaşlı kino adamıyam. Ömrümü bu sənətə həsr etmiş bir kino fədaisi kimi danışıram. Ona görə də Tahir Tahirova və digər gənclərə səslənirəm: əgər doğrudan da peşəkar kino ilə ciddi şəkildə məşğul olmaq istəyirlərsə, xahiş edirəm, rəsmi qaydada kinostudiyaya müraciət etsinlər. Bu gün-sabah bərpa komissiyası yaradılır, gəlsinlər, ARKA-ya və Bədii Şuraya öz materiallarını təqdim etsinlər. Gəlin, kino sahəmizi birlikdə dirçəldək, Azərbaycan kinosuna yenidən nəfəs verək".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**




## AzTV-dən 26 milyon manatlıq nöqsana reaksiya

**"Artıq bir neçə ildir ki, QSC-nin qonorar sistemindən tam imtinası və maaşların yalnız əməkhaqqı formasında ödənilməsi ilə bağlı Hesablama Palatası ilə müzakirələr aparılır". Bu barədə Teleqraf-ın sorğusuna cavab olaraq AzTV-dən bildirilib.**

"Prosesin çətin tərəfi odur ki, televiziya yarandığı gündən maaş və qonorar sistemi ilə işləyib və əməkdaşlar ortaya qoyduğu məhsulun sayına və keyfiyyətinə əsasən həm maaş, həm də qonorar alıblar. Qonorar sisteminin tamamilə yığışdırılması vahid və standart ödəniş sistemi yaradacaq ki, bu da məhsuldarlığa və işin keyfiyyətinə, düşünürük ki, mənfi təsir edəcək. İstənilən halda, əmək münasibətlərinin düzgün tənzimlənməsi və qonorar sistemindən birdəfəlik imtina ilə bağlı məsələ gündəlikdədir və yaxın zamanlarda bu problem aradan qaldırılacaq. Artıq proses başlayıb və QSC-də tam olaraq əməkhaqqı sisteminə keçid edilir", - açıqlamada qeyd olunub. Vurğulanıb ki, gələn ildən məsələ tam şəkildə həllini tapacaq.

Qeyd edək ki, audit nəticəsində "AzTV" QSC tərəfindən əmək müqaviləsi əsasında fəaliyyət göstərən işçilərə əmək funksiyalarının icrası ilə bağlı ödənilməli vəsaitlərin qonorar adı ilə rəsmiləşdirilməsinə və ödənilməsinə yol verildiyi müəyyən edilib. Söhbət ümumilikdə 26,0 mln. manatdan, o cümlədən 2023-cü ildə 11,3 mln. manat, 2024-cü ildə 11,6 mln. manat, 2025-ci ilin 1-ci rübündə 3,1 mln. manatdan gedir.

## "Azərbaycan Nəşriyyatı" pulsuz qalır

**Gələn il dövlət büdcəsində "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün vəsait nəzərdə tutulmayıb. Bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.**

Belə ki, 2024-cü ildə 2 352 890 manat icra edilib, 2025-ci ildə 2 228 290 manat məbləğində icra planlaşdırılır. 2026-cı ildə isə bu məqsədlə vəsait ayrılmayıb.

YENİ MÜSAVAT
N 201 (8811) 5 noyabr 2025

# Ərəblər Cənub Qaz Dəhlizində pay alır

## Bu, SOCAR ilə XRG/ADNOC arasında əldə olunan üçüncü razılaşmadır




**Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilən ADIPEC sərgisi çərçivəsində ADNOC şirkətinin beynəlxalq enerji investisiya qolu olan XRG tərəfindən Azərbaycan İqtisadiyyat Nazirliyindən "Cənub Qaz Dəhlizi" QSC-də pay əldə olunmasına dair hüquqi öhdəlik yaratmayan Əsas Şərtlərlə bağlı Razılaşma imzalanıb.**

İqtisadiyyat Nazirliyi xəbər verir ki, razılaşmanı iqtisadiyyat naziri, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və XRG-nin icraçı sədri, baş icraçı direktoru Sultan Əl Cabir imzalayıblar.

Bildirilir ki, bu razılaşma SOCAR və XRG arasında əməkdaşlığı qaz hasilatından Avropada enerji təchizatını şaxələndirmək istəyən bazarlara enerji resurslarının etibarlı çatdırılmasına qədər genişləndirmək potensialına malikdir: "Eyni zamanda Azərbaycanla BƏƏ arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin, enerji layihələri üzrə əməkdaşlığın daha da genişləndirilməsinə, həmçinin ölkəmizin iqtisadi inkişafına və etibarlı tərəfdaş kimi rolunun daha da möhkəmlənməsinə töhfə verəcək".

Qeyd edək ki, imzalanan sənəd SOCAR ilə XRG/ADNOC arasında əldə olunan üçüncü razılaşmadır. Belə ki, tərəflər bundan öncə SARB və Umm Lulu yataqlarında iştirak payının SOCAR-a verilməsi, həmçinin ADNOC şirkətinə "Abşeron" qaz-kondensat yatağında iştirak payının satışına dair razılıq əldə ediblər.

Qeyd edək ki, "Cənub Qaz Dəhlizi" QSC qaz hasilatı üzrə aktivlərdə və ümumi uzunluğu 3 500 kilometr olan boru kəməri şəbəkəsində paya malikdir. Bu infrastruktur illik 26 milyard kubmetr həcmədək nəql gücünə malik olmaqla Xəzər hövzəsindən təbii qazın Türkiyə üzərindən Cənubi Avropaya nəqlinə imkan yaradır.

QSC 2014-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə yaradılıb. Sərəncam əsasən "Şahdəniz" yatağının işlənməsi, hasil olunan qazın dünya bazarına çıxarılması layihələri üzrə Dövlətə məxsus payların konsolidasiya edilməsi, idarə olunması və maliyyələşdirilməsi məqsədilə Dövlət (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi) (51faiz) və SOCAR-ın (49 faiz) təsisçiliyi ilə "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti formalaşdırılıb. Sərəncama uyğun olaraq, SOCAR-ın Layihələr üzrə bütün iştirak payları "CQD" QSC-yə ötürülüb və bu payların maliyyələşdirilməsi və səmərəli şəkildə idarə olunması "CQD" QSC tərəfindən həyata keçirilir.

Azərbaycan Prezidentinin 10 dekabr 2024-cü ildə imzaladığı növbəti sərəncamla CQD QSC-nin İqtisadiyyat Nazirliyində olan payının 2 faizi SOCAR-a verilib. Beləliklə, hazırda QSC-nin səhmlərinin 49 faizi dövlətə (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi), 51 faizi SOCAR-a məxsusdur.

CQD-nin adından layihələr üzrə əməliyyat işlərini SOCAR həyata keçirir.

QSC-nin Şahdəniz HPBS və əlaqəli müqavilələrdə 16,02 faiz, Azərbaycan qazını dünya bazarına çıxaran TANAP-da 51 faiz, TAP-da 20 faiz, "Azerbaijan Gaz Supply Company Limited"də 12,816 faiz, Cənubi Qafqaz Qaz Boru Kəmərində 21,02 faiz payı var.

CQD-nin birbaşa dövlətə (İqtisadiyyat Nazirliyi - red.) məxsus olan səhmlərinin maliyyələşdirilməsi isə Prezident sərəncamı ilə Dövlət Neft Fonduna həvalə olunub. Neft Fonduna Cəmiyyətin birbaşa dövlət mülkiyyətində olan səhmlərinin maliyyələşdirilməsi, eləcə də cəmiyyətə keçən layihələrdəki iştirak paylarının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin geri qaytarılmaq şərti ilə cəmiyyətə uzunmüddətli investisiya edilməsi tapşırılıb. Həmin səhmlər üzrə dividentlər ARDNF-yə köçürülməlidir.

2014-cü ildə Prezident sərəncamına uyğun olaraq ARDNF tərəfindən cəmiyyətin birbaşa dövlət mülkiyyətində olan hissəsinin maliyyələşdirilməsini təmin etmək məqsədilə 51 milyon ABŞ dolları İqtisadiyyat Nazirliyinin dövlət xəzinədarlığındakı müvafiq hesabına köçürülüb. Bundan əlavə, Neft Fondu 2014-cü il ərzində cəmiyyətə keçən layihələrdəki iştirak paylarının maliyyələşdirilməsi üçün 2 milyard 517,0 milyon ABŞ dolları məbləğində vəsaiti geri qaytarılmaq şərti ilə cəmiyyətə uzunmüddətli investisiya edib.

Bundan əlavə, 2014-cü ildə layihələrin həyata keçirilməsi üzrə Prezidentin sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən 2015-ci ildən etibarən layihələrin maliyyələşdirilməsi cəmiyyətin nizamnamə kapitalının İN və ARDNŞ-yə məxsus paylarının faiz nisbətinin qorunması şərtilə hər iki aydan bir artırılması şəklində səhmdarlar tərəfindən həyata keçirilməsi qərara alınıb. Bu qərarın icrası çərçivəsində 2017-ci ilin iyunun sonunadək Cəmiyyətin Müşahidə Şurasının və Ümumi Yığıncağının müvafiq qərarlarına əsasən nizamnamə kapitalı 2 milyard 415,8 milyon ABŞ dolları məbləğinə qədər artırılıb. Bu zaman ARDNF tərəfindən cəmiyyətin nizamnamə kapitalının artırılması üçün əlavə olaraq ümumilikdə 1 milyard 232,1 milyon ABŞ dolları (51 faiz) vəsait ayrılıb. Beləliklə, Neft Fondunun CQD QSC-yə yatırımları 3 milyard 749,1 milyon dollara yüksəlib.

İndiyədək bu yatırımlardan fonda hər hansı divident daxil olmayıb. Fondun 2025-ci il büdcəsində cari il ilk dəfə olaraq QSC-nin dövlətə məxsus səhmləri üzrə 233,1 mln ABŞ dolları və ya 396,2 mln manat dividentlərin ödənilməsi nəzərdə tutulub. Lakin ARDNF-nin 9 aylıq büdcə göstəricilərində bu maddə üzrə hər hansı daxilolma qeydə alınmayıb. Bu isə QSC-yə yatırımlardan gəlir əldə olunmadığını deməyə əsas verir. Yeri gəlmişkən, Prezident İlham Əliyev də Azərbaycanın Cənub Qaz Dəhlizinə yatırdığı investisiyaları hələ geri qaytarmadığını açıqlayıb.

Neft Fondunun CQD-nin payçı olduğu "Şahdəniz" layihəsindən əldə etdiyi gəlirləri bu il xeyli azalıb. Belə ki, bu ilin yanvar-sentyabrında Dövlət Neft Fonduna "Şahdəniz" yatağından (qaz və kondensat) 697milyon manat məbləğində vəsait daxil olub. Ötən ilin eyni dövründə bu göstərici 813,2 milyon manat civarındaydı.

"Şahdəniz"də çalışan şirkətləri dövlət büdcəsinə ödədikləri mənfəət vergisində isə artım var. Maliyyə Nazirliyinin açıqladığı məlumat görə, doqquz ayda "Şahdəniz" yatağı üzrə dövlət büdcəsinə 1 milyard 748,4 milyon manat mənfəət vergisi daxil olub. Ötən ilin eyni dövründə bu göstərici 1 milyard 729,7 milyon manata bərabər olmuşdu.

Gələn ilin dövlət büdcəsi layihəsində "Şahdəniz" layihəsi üzrə mənfəət vergisi 1 milyard 600 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 100 milyon manat və ya 6,7 faiz çox, 2024-cü ilin icrası ilə müqayisədə isə 741,0 milyon manat və ya 31,7 faiz azdır. 2025-ci ilin proqnozu ilə müqayisədə artım, təbii qazın orta satış qiymətinin cari il üzrə nəzərdə tutulmuş göstəricidən 8,3 faiz və ya 20 ABŞ dolları yüksək götürülməsi ilə əlaqədardır.

Onu da qeyd edək ki, Neft Fondu da ADNOC-la investisiya əməkdaşlığına başlayıb. Bu ilin may ayında qurum Əbu-Dabidə yerləşən, qlobal alternativ investisiya şirkəti olan "Lunate Capital" ("Lunate") tərəfindən idarə olunan ixtisaslaşmış investisiya fondu vasitəsilə "ADNOC Gas Pipeline Assets LLC" ("AGPA") şirkətinə 50 milyon ABŞ dolları həcmində investisiya yatırıb. Fondun yaydığı məlumata görə, bu investisiya ARDNF-nin investisiya portfelini şaxələndirmək və Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) regionundakı fəaliyyətini genişləndirmək strategiyasına xidmət edir. Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov bu yatırımı qurumun daha yüksək gəlirli aktivlərə investisiya etmək siyasətinin nəticəsi hesab edir. Onun sözlərinə görə, Neft Fondu son illərdə 7-8 faiz gəlirliyi və uzunmüddətli dövlət təminatı olan daha az risklə səciyyələnən aktivlərə yatırım edir. İ.Məmmədov bildirib ki, fond sözügedən şirkətə daha çox investiya edə bilərdi. Amma bu tipli şirkətlərin səhmlərinə tələb yüksəkdir. Fond ona görə də investisiya həcmini 50 milyon dollarla məhdudlaşdırmalı olub.

Energetika Nazirliyinin açıqladığı məlumata görə, 2025-ci ilin yanvar-sentyabr aylarında ölkədə 38,2 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 10,2 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 20,9 milyard kubmetri "Şahdəniz"in, 1,2 milyard kubmetri "Abşeron" yatağının, 5,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb. 9 ay ərzində xaricə qaz ixracı 18,3 milyard kubmetr təşkil edib. Bunun 9,4 milyard kubmetri Avropanın, 7,3 milyard kubmetri Türkiyənin (o cümlədən TANAP-la 4,3 milyard kubmetr), 1,6 milyard kubmetrə yaxını isə Gürcüstanın payına düşüb.

**Enerji məsələləri üzrə ekspert, Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şabanın "Yeni Müsavat"a bildirdiyinə görə, CQD "Şahdəniz" layihəsində və Azərbaycanın qaz ixracı infrastrukturunda paylara sahibdir:** "XRG ilə razılaşmanın İqtisadiyyat Nazirliyi ilə imzalanması deməyə əsas verir ki, şirkət pay alarsa, bu, İqtisadiyyat Nazirliyinin Cənub Qaz Dəhlizi QSC-dəki 49 faizlik payından bir hissə olacaq. Digər tərəfdən, nə ərəblər, nə də bizimkilər payın hansı hissəsinin satılacağını açıqlamayıb. Bu, yəqin ki, alqı-satqı müqaviləsi imzalandıqda açıqlanacaq. Belə müqavilə imzalanarsa, normal qiymətləndirmək olar. Biznesdə bu, risklərin bölüşdürülməsidir və normal praktikadır. Səhmdar cəmiyyətdirsə, bu, tam təbiidir. Dövlət öz maliyyə yükünü azaldır".

Ekspert qeyd edir ki, ADNOC Azərbaycan tərəfi ilə çox aktiv əməkdaşlıq edir: "Onlar hətta Petronas şirkəti ilə Türkmənistanın şelfində yataqların işlənməsində də ortaqlığa nail olmağa çalışırlar. Məncə, bu akvatoriyada məhz qaz layihələrində iştirakla bağlı aktiv siyasət yürüdülməsi, ikinci bir tərəfdən, Dövlət Neft Şirkətinin körfəzdə ADNOC neft layihəsində pay alması qarşılıqlı etimad, bir-birinə olan inam və birgə biznesin qarşılıqlı maraqlar çərçivəsində böyüdülməsi hesab olunmalıdır".

Yeri gəlmişkən, ADNOC-un 30 faiz pay aldığı "Abşeron" yatağının işlənməsi üzrə ikinci mərhələnin investisiya qərarının bu ilin sentyabrına qədər verilməsi nəzərdə tutulurdu. Lakin il başa çatmaqdadır, belə qərar açıqlanmayıb.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 201 (8811) 5 noyabr 2025

# “Monqolustan əti Beyləqan qoyunundan dadlıdır”- iddia

## Məlumatlara görə, Bakıda restoranlarda, hətta şadlıq evlərində bu ölkədən gətirilmiş donmuş ətdən istifadə olunur

**Məlum olduğu kimi, dabaq xəstəliyi ilə əlaqədar oktyabrın 25-dən etibarən heyvan bazarları fəaliyyətini dayandırıb. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) həmin gündən ölkə üzrə bütün heyvan bazarlarının müvəqqəti bağlandığını rəsmən açıqlayıb.**

Qurumdan bildirilir ki, müxtəlif ölkələrdə xüsusi təhlükəli yoluxucu xəstəliklərin yayılması müşahidə olunur və bu hal region ölkələri, o cümlədən Azərbaycan üçün real risk yaradır. Qərara əsasən, heyvan bazarlarında dezinfeksiya, dezinseksiya və deratizasiya işləri aparılır. Tədbirlər tamamlandıqdan sonra bazarların fəaliyyəti mərhələli şəkildə bərpa ediləcək.

Lakin heyvan bazarlarının nə zaman açılacağı hələlik məlum deyil. Bu səbəbdən qəssablar diri heyvan tapmaqda çətinlik çəkirlər, əhali də narahatlığa görə ət almağa tərəddüd edir. Məlumatlara görə, artıq Bakı restoranlarında, hətta şadlıq evlərindəki toy məclislərində Monqolustandan gətirilən donmuş ətdən istifadə olunur. Bu ətin kiloqramı 11-13 manata təklif olunur.

Monqolustan dünyanın ən böyük heyvandarlıq mərkəzlərindən biridir. 2024-cü ilin rəsmi sayımı ölkədə təxminən 57,6 milyon baş ümumi heyvan olduğunu göstərib. Bu heyvanların əksəriyyəti qoyun və keçilərdir. 2024-cü ildə ümumi sürünün təxminən 80%-dən çoxu qoyun və keçilərdir; mal-qara (cattle) və atın payı xeyli azdır, dəvə sayı isə nisbətən aşağıdır. Monqolustanın ixrac profili də buna uyğun gəlir. İxrac olunan ətin böyük hissəsi qoyun və keçi ətləridir. 2025-ci ilin ilk 8 ayında ölkə təxminən 18.1 min ton ət və ət məhsulu ixrac edib. İxrac olunan ətin təxminən 60-65%-i qoyun-keçi məhsulidir. Bu ilin yalnız birinci rübündə ölkəmizə Monqolustandan 121 ton ət gətirilib. Halbuki ötən il 12 ay ərzində cəmi 40 ton ət idxal edilib. Bu ətlərə tələbatın artdığını satıcılar da təsdiqləyirlər. Monqolustan ətinin qiyməti 13-15 manat arasında dəyişir. Satıcılar bildirirlər ki, xarici ət daha dadlıdır. Qiymətin ucuzluğuna gəldikdə isə satıcılar bunu xaricdəki heyvan bolluğu və ərazi genişliyi ilə əlaqələndirərək, Monqolustanda qoyunçuluğun kifayət qədər inkişaf etdiyini bildiriblər.




İqtisadçı ekspertlər bildiriblər ki, ölkəmizə daha çox Rusiya, Gürcüstan, Hindistandan ət idxal olunur. Son zamanlar isə Monqolustan da bu sıraya daxil olub.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, bu ilin yanvar-avqust aylarında Azərbaycan 373,4 min ABŞ dolları dəyərində 106,52 ton qoyun əti idxal edib. Bu, 2024-cü ilin analoji dövrü ilə müqayisədə dəyər ifadəsində 35%, kəmiyyət olaraq 24% azdır.

Bu dövr ərzində Azərbaycan Monqolustandan 349,72 min ABŞ dolları dəyərində (bir il əvvəlki göstəricidən 38% az) 87,43 ton (-38%), Rusiyadan 18,65 min ABŞ dolları dəyərində (+1 865 dəfə) 18,92 ton (+1 892 dəfə), Yeni Zelandiyadan 4,49 min ABŞ dolları dəyərində (+5,4 %) 0,14 ton (-26%) və Avstraliyadan 0,53 min ABŞ dolları dəyərində (-62%) 0,03 ton (-40%) məhsul alıb. 2024-cü ildə Azərbaycana idxal edilmiş 453 ton qoyun ətinin 99,3%-i Monqolustanın payına düşüb.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Monqolustan böyük qoyun əti ixracatçısıdır, bu ətlər ən çox İrana gedir:** "Bu məhsul ekoloji təmiz hesab olunur. Əlbəttə, bu məhsul yerli Qarabağ qoyunları ilə eyni deyil. Merinos tipli qoyunlar müsəlman ölkələrə ixrac olunur. Bu məhsulun gətirilməsi tam nəzarət altındadır. Oradakı qoyunçuluq təsərrüfatlarına da nəzarət edilir. Azərbaycana gətirilən məhsullara isə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Bu məhsullar əsasən restoranlara göndərilir. Az bir hissəsi sənayedə istifadə olunur. Bu ətlər açıq şəkildə az satılır. Ölkəmizə kilosu 12-13 manata gəlib çıxır. Qeyd edim ki, təxminən 5 ildən sonra ölkəmizə xaricdən qoyun əti gətirilməsinə ehtiyac olmayacaq. Çünki işğaldan azad edilmiş ərazilərdə heyvandarlıq geniş inkişaf edəcək".

**E.Hüseynov əlavə edib ki, ətin dadı regionlara görə dəyişir:** "Ən dadlı ət şoranlıq zonasının bitkiləri ilə qidalanan heyvanların ətləridir. İstehlakçılardan verilən məlumata görə, yerli ətlər, o cümlədən Muğan zonasında, Beyləqanda yetişdirilən heyvanların ətləri Monqolustan ətlərindən daha dadlıdır. Bu zonanın əti hamısından dadlıdır. Yeni Zelandiyada yetişdirilmiş qoyunun ətini də yemişəm, son dərəcə yumşaq, dadlıdır. Orada heyvanlar təbii şəraitdə yemlənir, süni yem verilmir. Təsadüfi deyil ki, son zamanlar AİB-ə edilən müraciətlərdə ən məşhur restoranlardakı lülə, tikə kabablarının dadsız olduğu bildirilir. İstisna olunmur ki, kabablar Monqolustandan gətirilən ətlərdən hazırlanıb, buna görə də insanların ağız dadlarına uyğun deyil. İstehlakçıların yerli quzu ətinin verilməsi ilə bağlı tələb irəli sürmək haqqı var. O cümlədən qarşı tərəf istehlakçıya ətin mənşəyi barədə məlumat verməyə borcludur".

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**



## Nazir iqtisadçı ekspertlərdən narazıdır

**“Ölkədə iqtisadi artımın və şaxələnmənin dəstəklənməsi məqsədilə Vergi Məcəlləsinə dəyişikliklər layihəsi Milli Məclisin müzakirəsinə təqdim olunub. Bu layihədə investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, o cümlədən Naxçıvan MR-də fəaliyyət göstərən sahibkarlıq subyektlərinə güzəştlərin verilməsi və s. kimi təkliflər nəzərdə tutulub”.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib.

“Son həftələrdə müşahidə edirik ki, mediada özlərini müstəqil ekspert adlandıran şəxslər bəzən çaşdırıcı məlumatlar təqdim edir. Biz də bu istiqamətdə məlumatlandırma işlərinə davam edəcəyik. Xüsusilə son illərdə həyata keçirilən vergi islahatları sırasında əmək münasibətlərinin şəffaflaşdırılmasına yönəlmiş əməkhaqqı islahatı əmək bazarının leqallaşmasında əhəmiyyətli nəticələrin əldə edilməsinə imkan verib. Belə ki, özəl sektorda 8 min manatadək əməkhaqqının vergidən azad olması nəticəsində 1 yanvar 2019-cu ildən 1 oktyabr 2025-ci ilədək özəl sektorda əmək müqavilələrin sayı artaraq 471 min artaraq 1 milyonu ötüb. 2025-ci ilin gözlənilən rəqəmi nəzərə alınmaqla, özəl sektorda əməkhaqqı fondunun 2019-2025-ci illərdə 3 dəfə artaraq 10.6 milyard manata çatması proqnozlaşdırılır. Bildiyiniz kimi, 1 yanvar 2026-cı ildən etibarən verilən güzəştin vaxtı bitir. Aşağı vergi yükünü müəyyən etməklə qeyri-neft-qaz özəl sektorunda əməliyyatların tədricən mərhələli şəkildə vergiyə cəlb edilməsi barədə təkliflər təqdim olunub. Bu, asan müzakirələr olmayıb. Burada müxtəlif baxışlar olub. Təqdim olunan sənəd vahid mövqeni əks etdirir”, - deyə nazir bildirib.

# Çin avtomobilləri bu detaldan yanır

## Ekspertə görə, bu hallar istehsalçı ölkə ilə bağlı deyil

**Son vaxtlar Azərbaycanda Çin istehsalı olan avtomobillərin sürətlə artması müşahidə olunur. Xüsusilə də elektrikli modellərə maraq böyüyüb. Lakin son dövrlər baş verən bəzi hadisələr, o cümlədən yanğın və texniki nasazlıq hallarının qeydə alınması cəmiyyətdə bir sıra narahatlıq yaradır. Salyan rayonunda “Haval” markalı minik avtomobilinin yanması ilə bağlı son hadisə isə sualları daha da aktuallaşdırıb. Çin avtomobilləri doğrudanmı təhlükə mənbəyinə çevrilir, yoxsa problem daha çox elektrikli avtomobillərin texniki xüsusiyyətləri ilə bağlıdır?**

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyev Modern.az-a avtomobillərdə baş verən yanğının səbəbini izah edərkən bildirib ki, yanğın halları müxtəlif səbəblərdən qaynaqlana bilər. Onun sözlərinə görə, xüsusilə köhnə avtomobillərdə daxili naqillərin köhnəlməsi bu riski artırır.

“Son dövrlərdə isə başqa bir tendensiya müşahidə olunur, avtomobillərə əlavə işıq avadanlıqları və müxtəlif elektron cihazlar qoşulur. Bu cihazlar çox vaxt peşəkar olmayan şəxslər tərəfindən servis və ya mağazalarda quraşdırılır. Nəticədə avtomobilin elektrik sistemi yüklənir və qısaqapanma baş verir ki, bu da yanğına səbəb olur”.



**Eyyub Əliyev həmçinin vurğulayıb ki, bu hallar avtomobilin istehsal olunduğu ölkə ilə bağlı deyil:** “Amerika, Yaponiya, Koreya və ya Çin istehsalı olmasından asılı olmayaraq, bütün avtomobillərdə bu cür hadisələr baş verə bilər. Sadəcə, hazırda Çin avtomobilləri bazarda daha geniş yayılıb və daha çox satıldığı üçün belə hadisələr də onların adı ilə daha çox hallanır.

Ümumilikdə aparılan müşahidələr onu göstərir ki, avtomobillərdə yanğınların əsas səbəbi sonradan qoşulan əlavə avadanlıqların düzgün quraşdırılmamasıdır”,- deyə icraçı direktor qeyd edib.

Bu gün Azərbaycana Çin istehsalı olan kifayət qədər keyfiyyətli və sərfəli avtomobillər gətirilir. Bu avtomobillər həm qiymət, həm də yanacaq sərfiyyatı baxımından digər ölkələrin istehsalı olan avtomobillərdən olduqca sərfəlidir. Amma bəziləri bu avtomobillərin keyfiyyətsiz olduğunu iddia edir.

Ekspertlərə görə, bəziləri Almaniya, Yaponiya kimi ölkələrin avtomobil markalarının Çin versiyasını alıb, Azərbaycana gətirir və bəzən həmin şəxs problem yaşayır. Məsələn, ayrı-ayrı şəxslər “Mercedes”, “Toyota” kimi avtomobillərin Çində istehsal olunan variantlarını alıb, Azərbaycana gətirir. Hansısa problem yarananda “Mercedes” və “Toyota”nın Azərbaycandakı servisləri həmin avtomobillərə xidmət göstərmir. Bu da sonra həmin şəxsin problem yaşamasına səbəb olur.

Mütəxəssislər deyir ki, Çin avtomobilləri barədə ən dəqiq proqnoz 5 ildən sonra verilə bilər.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 201 (8811) 5 noyabr 2025




# ƏDV 200 min manatdan 400 min manata qaldırılır

**Azərbaycanın qeyri-neft-qaz özəl sektorunda əməliyyatların mərhələli şəkildə vergiyə cəlb edilməsi ilə bağlı təkliflər təqdim olunub.**

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində “2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı bildirib. Nazirin sözlərinə görə, aşağı vergi yükü tətbiq etməklə qeyri-neft-qaz özəl sektorda əməliyyatların tədricən, mərhələli şəkildə vergiyə cəlb olunması barədə təkliflər hazırlanıb: “Bu, asan müzakirə mövzusu olmayıb. Müxtəlif baxışlar mövcud idi, lakin təqdim olunan sənəd nəticə etibarilə vahid mövqeni əks etdirir”.

M.Cabbarov bildirib ki, vergi islahatlarının davamı olaraq, iqtisadi artımın və şaxələnmənin dəstəklənməsi, şəffaflığın artırılması məqsədilə Vergi Məcəlləsinə dəyişikliklər layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib: “Layihədə bir sıra stimullaşdırıcı mexanizmlər nəzərdə tutulur. Belə ki, investisiya mühitinin və sahibkarlığın təşviqi məqsədilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlıq subyektlərinə işğaldan azad edilmiş ərazilər üçün tətbiq edilən eyni vergi güzəştlərinin verilməsi təklif olunur; nəqliyyat sektorunda avtobus və yük avtomobillərinin istehsalının stimullaşdırılması planlaşdırılır; balıqyetişdirmə fəaliyyəti kənd təsərrüfatı sektoruna daxil edilərək bu sahəyə mövcud tamhəcmli güzəştlərin şamil edilməsi nəzərdə tutulur; nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə ictimai iaşə sektoruna vergi güzəştləri və dərəcələrin azaldılması təklif edilir. Bununla yanaşı, ƏDV qeydiyyat həddi 200 min manatdan 400 min manata qaldırılacaq”.

Nazir həmçinin vurğulayıb ki, son illərdə həyata keçirilən vergi islahatları çərçivəsində əmək münasibətlərinin leqallaşdırılmasına yönəlmiş əməkhaqqı islahatı əmək bazarının şəffaflaşmasında mühüm nəticələr verib: “Belə ki, qeyri-neft-qaz özəl sektorda 8 000 manata qədər olan əməkhaqları gəlir vergisindən azad edildikdən sonra 2019-cu il yanvarın 1-dən 2025-ci il oktyabrın 1-dək bu sektorda əmək müqavilələrinin sayı 471 min artaraq 1 milyonu ötüb, ümumi əmək müqavilələri içində payı 38,5%-dən 54,1%-ə yüksəlib.

Bunun fonunda 2018-2024-cü illərdə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində büdcədən edilən transfertlərin payı 35,6%-dən 17,5%-ə enib".

# Həyət evi olanlara supulu ilə bağlı bəd xəbər

## İqtisadçı deyir ki, limitlər aylıq hesablansa, qiymətlər artacaq; ""Aşağı qiymət"i belə indiki orta qiymət səviyyəsində hesablamaq istəyirlər"




**Azərbaycanda qaz və elektrik enerjisində olduğu kimi, su təchizatı xidmətlərində də diferensiallaşdırılmış tariflərin tətbiqi gündəmdədir. Yada salaq ki, qaz və elektrik enerjisi üzrə artıq sabit tarif mexanizmi qüvvəyə minib. Suda da eyni qaydada diferensial qiymət mexanizminin tətbiqi gözlənilir. Hazırda qaz üçün limit 1200 kubmetrdir və bu, nəzərdə tutulan illik limitdir. Elektrik enerjisində isə aylıq minimal limit 300 kVt/saat təşkil edir. İçməli suyun 1 kubmetri əhali üçün 70 qəpik, kanalizasiya xidməti isə 30 qəpikdir. Yəni kanalizasiya sistemi olan ev təsərrüfatlarında suyun hər kubmetrinə görə 1 manat ödəniş edilir.**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov da Modern.az-a deyib ki, yuxarı, orta və aşağı limitlər müəyyənləşdirilməlidir. Belə olduqda tarif artımı hamıya eyni dərəcədə təsir etməyəcək. Aşağı limitdə artım daha az olacaq: “Məsələn, ən aşağı əhali qrupu üçün gələcəkdə nəzərdə tutulan limitin 70 qəpik qalması mümkündür və bu, illik 30-40 ton su sərfiyyatına hesablanacaq. Hazırda adambaşına orta hesabla aylıq 5 ton su istifadə olunur. Sudan az istifadə edən az, çox istifadə edən isə daha çox ödəyəcək. Bu da sosial ədaləti təmin edən yanaşmadır. Məsələn, həyət evləri və bağ evlərində su sərfiyyatı çox olur. Belə evlərdə bir neçə sanitar qovşağı, hovuz, ya da geniş yaşıllıq sahələri olur. Ədalətli yanaşma isə ondan ibarətdir ki, belə evlərdə yaşayanlar daha artıq su istifadəsinə görə daha çox ödəniş etsinlər”.

Həyət evlərində yaşayanların hamısı imkanlı deyil. Suya qənaət vacibdir, amma bu ancaq qiymət artımı ilə mümkündür?

**İqtisadçı Xalid Kərimli mövzu ilə bağlı “Yeni Müsavat”a açıqlamasında bildirib ki, istər diferensiallaşma olsun, istər olmasın, hökumət qiymətləri artırır:** “Bu artımın müxtəlif izahları var. Qiyməti artıran qurumun yaxşı idarəçiliyinə dair birmənalı fikir yoxdur. Əgər hər hansı bir qurum effektiv işləmirsə, korporativ idarəetmə prinsiplərinə əməl etmir, hesabatlı deyilsə və resursların səmərəli idarə olunması istiqamətində ciddi səylər göstərmirsə, onun məhsulunun maya dəyəri və tələb etdiyi qiymət cəmiyyətdə suallar doğurur. Cəmiyyət haqlı olaraq düşünür ki, bu qurumların rəhbərləri milyarder olurlar - bəs bu pullar haradandır? Təbii ki, həmin qurumlar xərcləri şişirtməklə bunu edə bilirlər. Qiymət artımı populist qərar deyil, əksinə, insanların cibindən daha çox vəsait çıxması deməkdir. Dövlət müəssisələrinin rəhbərləri cəmiyyətin gözü qarşısındadır, sonradan onların var-dövlət sahibi olması məlum olur. Bu da məsələnin digər tərəfidir”.

**İqtisadçı limitlərin tətbiq olunması haqda da danışıb**: “Hazırda suyun qiyməti 30-70 qəpikdir, kanalizasiya xidməti olduqda isə 1 manat təşkil edir. Bəs diferensiallaşdırılmış qiymət artımı nə deməkdir? Bu, aşağı limitdə daha ucuz, yuxarı limitdə isə daha baha qiymətlərin tətbiq edilməsi deməkdir. Hazırda hamı orta qiymət ödəyir. Diferensiallaşma tətbiq olunduqda, aşağı sərfiyyat üçün qiymət daha ucuz, orta sərfiyyat üçün təxminən indiki səviyyədə, yüksək sərfiyyat üçün isə daha baha olmalıdır. Lakin indi elə vəziyyət yaranıb ki, "aşağı qiymət"i belə indiki orta qiymət səviyyəsində hesablamaq istəyirlər. Başqa sözlə, qiymət artımı nəzərdə tutulur".

**Xalid Kərimli qeyd edir ki, diferensiallaşma, yəni limitlərin tətbiqi əslində müsbət addımdır:** “Daha çox istifadə edənlərin daha yüksək tarif ödəməsi həm sosial ədalət baxımından doğrudur, həm də qənaətə sövq edir. Deyilə bilər ki, hamının imkanı eyni deyil. Əgər imkan azdırsa, qənaət etmək lazımdır. Limitləşmə insanları qənaətcil olmağa və resurslardan səmərəli istifadəyə təşviq edir. Ən həssas məqam isə limitlərin necə tətbiq ediləcəyidir - aylar üzrə, yoxsa il üzrə? Əgər illik limit tətbiq olunsa, insanlar xərclərini daha yaxşı planlaya biləcəklər. Amma aylıq limit qoyularsa, xüsusilə yay aylarında xərclər daha çox arta bilər. Məsələn, işıq üçün limit aylıq, qaz üçün isə illik müəyyənləşdirilib. Ümumilikdə, diferensiallaşma həm ədalətli, həm də səmərəliliyi artıran, qənaətə təşviq edən proqressiv addımdır”.

**Sosioloq Elçin Bayramlı** deyir ki, suyun uçotdankənar obyektlərə verilməsi, düzgün olmayan idarəetmə nəticəsində dağıdılması, su fondlarının bərabər paylaşdırılmaması, yaşıllıqların suvarılmasında çox ciddi su itkisinə yol verilməsi, bu kimi süni problemlər suyun maya dəyərini artırır: “Müxtəlif bəhanələr gətirirlər ki, əhali sudan qənaətlə istifadə etmir. Amma bu, tamamilə yanlışdır. Heç kəs dəli deyil ki, suyu lüzumsuz yerə istifadə edə və artıq pul ödəyə. Yaxşı olar ki, aidiyyəti qurumlar su itkilərinin qarşısını alsınlar. İndiyə qədər ayrılan milyardlarla vəsaitin hesabatını versinlər. Niyə ölkədə dövlət büdcəsindən, xarici fondlardan ən çox pul alan təşkilat bunlar olduğu halda, bu sahədə vəziyyət daha da pisləşir? Davamlı şəkildə suyun qiyməti bahalaşdırılır. Problem də xalqın boynuna qoyulur.

Faktiki surətdə istənilən formada sübut etmək mümkündür ki, bu qədər itki, bu qədər vəsait vətəndaşların problemi deyil. Əhali onsuz da suyu qənaətlə işlədir. Yaxşı olardı ki, Hesablama Palatası orada audit keçirsin. Xüsusi şirkətlərə, müəssisələrə, iri təsərrüfatlara, bahalı villalara çox vaxt sayğacsız verilən limitsiz su biabırçılığının qarşısı alınmalıdır. Belə obyektlər ağlagəlməz miqdarda su israf edir və bunun üçün çox az pul ödəyirlər. Ölkədəki astronomik su “itkisinin” qarşısı alınsa, suyun idarəedilməsinə peşəkar yanaşılsa, maya dəyəri dəfələrlə aşağı düşər, hətta içməli suyun qiymətini 2 dəfə ucuzlaşdırmaq mümkündür. Faktiki olaraq qonşu ölkələrdə suyun qiyməti bizdən xeyli ucuzdur. Su sektoruna ayrılan vəsaitlər digər sahələrin hamısından çoxdur. Son dövrdə bu sahəyə milyardlarla pul ayrılıb. İndi cavab versinlər - bu pullar hara, nəyə, necə xərclənib, niyə vaxtında lazımi tədbirlər görülməyib ki, 21-ci əsrdə Bakıda su qrafiklə verilir. Hələ mən bu suyun həcmindən danışıram, keyfiyyətindən yox. Keyfiyyət tamam ayrı mövzudur və daha böyük problemdir..."

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 201 (8811) 5 noyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Azərbaycan dövləti keçmiş məcburi köçkünlərin öz dədə-baba yurdlarına qaytarılması prosesini çox sürətlə və uğurla aparır. Artıq gələn il üçün bu istiqamətdə bir sıra qərarlar qəbul olunub. Belə qərarlardan biri budur ki, 2026-cı ildə işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün 3 500 milyon manat vəsait ayrılacaq.**

Sənədə əsasən, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2026-cı ilin dövlət büdcəsində 3 500 000 000 manat məbləğində vəsait nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, qarşıdakı günlərdə işğaldan azad olunan Ağdam və Zəngilan şəhərlərinə keçmiş məcburi köçkünlərin qayıdışı başlayacaq. Bununla da "Böyük Qayıdış" proqramı çərçivəsində adları çəkilən şəhərlərə ilk köç olacaq.

Artıq noyabrın 3-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Ağdam və Zəngilana qayıdacaq sakinlər arasında evlərin bölgüsünə dair püşkatma keçirilib.

104 ailə Ağdam şəhərinin ilk sakinləri olacaq. Ümumilikdə isə 2026-cı ilə qədər Ağdama 20-25 min civarında əhalinin köçürülməsi nəzərdə tutulub. Ağdam təxminən 2000 hektarlıq ərazini əhatə edən 100 min əhalini məşkunlaşdıracaq ölkənin 4-cü ən böyük şəhəri olacaq.

Milli Məclisin deputatı Aqil Abbas köç üçün dəqiq tarix açıqlayıb. O, bu ay keçmiş məcburi köçkünlərin Ağdam şəhərinə ilk köçünün baş tutacağını bildirib.

**A.Abbas deyib ki, əhalinin yerləşdirilməsi ilin sonunadək davam etdiriləcək. O qeyd edib ki, Ağdam yüz min əhalisi olan böyük şəhər olacaq:** "50 metrdən çox eni olan çoxzolaqlı küçə və prospektlər gələcək layihələrdən xəbər verir. Hazırda Ağdamda yeddi zavod fəaliyyət göstərir. Başqa zavodların tikintisi də plandadır. İctimai-iaşə obyektlərinin istifadəyə verilməsi geniş iş imkanları yaradacaq".



# Daha iki şəhərə köç hazırlığı

## Partiya sədri: "Ağdamın ölkəmizin 4-cü böyük şəhərinə çevrilməsi planı təqdirəlayiqdir"

Milli Məclisin üzvü qeyd edib ki, rayonda təsərrüfatın müxtəlif sahələri ilə məşğul olmaq üçün geniş imkanlar var. Yuxarıda qeyd etdiyimiz kimi, bu ay ərzində Zəngilan şəhərinə də qayıdış gözlənilir.

**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli** "Yeni Müsavat"a bildirdi ki, Qarabağ işğaldan azad olunub və artıq yaşayış üçün təhlükəsiz bir məkana çevrilib: "Ermənilər tərəfindən basdırılmış minalar da sürətlə təmizlənməkdədir. Azad edilmiş ərazilərin yenidən qurulması və məskunlaşdırılması Azərbaycanın müstəsna səlahiyyətindədir. Əhalinin əsasən hansı bölgələrə yerləşdirilməsi, şəhərlərin böyüklüyü ilə bağlı plan dövlətimizə məxsusdur. Çox güman ki, verilən qərarlar həm də özündə geosiyasi amilləri ehtiva edir. Bütün ehtimallara rəğmən gələcəkdə təhlükəsizlik məsələlərinin də nəzərə alındığını deyə bilərik.

Hazırda Qarabağda çox böyük həcmdə tikinti-quruculuq işləri görülür. Siyasi partiya rəhbərlərinin işğaldan azad edilmiş ərazilərə səfəri zamanı biz bunu müşahidə etmişik. Ağdamın ölkəmizin 4-cü böyük şəhərinə çevrilməsi planı təqdirəlayiqdir. Bu, bütün dünyaya gözəl bir mesajdır. İşğaldan azad edilmiş ərazilərə nəzər saldıqda maraqlı bir mənzərə də diqqəti cəlb edir. Belə ki, hər bir bölgə fərqli taktika ilə geri qaytarılıb. Düşmənə təkcə hərbi meydanda qalib gəlməmişik. Həm də bir çox ərazilərimizi diplomatik yolla azad edərək siyasi müstəvidə də qələbə qazanmışıq.

Qarabağa böyük qayıdışda iştirak edənlər hərbi və siyasi qalibiyyətin nəticəsi olaraq azadlığa qovuşmuş torpaqlarımızı cana gətirəcək ilk sakinlər olacaqlar".

**Partiya sədri Zəngilanın xüsusi əhəmiyyətindən də söz açıb:** "Zəngilanda məskunlaşmanın mənəvi-psixoloji tərəfləri ilə yanaşı, çox böyük siyasi əhəmiyyəti də var. Bu rayon iki ölkə ilə - İran və Ermənistanla həmsərhəddir. Üstəlik, Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək koridor da bu rayondan keçəcək. Bütün bunlar zəngilanlılara əlavə iqtisadi gəlirlər gətirəcək. Eyni zamanda onun strateji əhəmiyyətini artıracaq. İşğaldan azad edilmiş ərazilərdə məskunlaşma həm də kənd təsərrüfatının inkişafına səbəb olacaq. Bu da ölkəmizi dünyada baş verən və bizə də təsir edə biləcək iqtisadi və ərzaq böhranlarından sığortalayacaq. Göründüyü kimi, məcburi köçkünlərin öz doğma yerlərinə qayıtmasının bütün sahələrdə böyük əhəmiyyətini ölkəmiz hiss edəcək".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI

# Taksilərlə bağlı yeni yazılmamış "qadağa"

## Sürücülər düşünür ki, süni əngəllər təsadüfi deyil

**Bakıda taksi fəaliyyəti ilə bağlı tətbiq olunan yeni qaydalar nəqliyyat sistemindəki xaosu aradan qaldırmaq əvəzinə, əksinə, yeni sosial gərginlik yaradıb. Sürücülər açıq şəkildə narazılıq edirlər - bəziləri işsiz qalmaqdan qorxur, bəziləri isə artıq "dolana bilmirik" deyə bu sahəni tərk etməyə məcbur olur.**




Nazirlər Kabinetinin 13 oktyabr tarixli qərarına əsasən, paytaxtda taksilərin sayı 25 minə qədər azaldılmalıdır. Halbuki bu sahədə çalışan sürücülərin sayı rəsmi rəqəmlərə görə 67 mindən çoxdur. Yəni 40 mindən çox insanın gələcək taleyi sual altındadır. Onların böyük hissəsi ailəsini dolandırmaq üçün bu işlə məşğuldur, çoxu kreditlə avtomobil alıb, indi isə həmin maşınlar bir yükə çevrilib.

Hazırda Bakı Beynəlxalq Avtovağzalında buraxılış kartı və lisenziya almaq istəyən sürücülər üçün uzun növbələr yaranıb. Sürücülərin bəziləri 2-3 gün orada gözlədiklərini, amma yenə də növbəyə düşə bilmədiklərini deyirlər.

Yeni sistemdə taksi sürücüsü olmaq üçün buraxılış vəsiqəsi, texniki baxış, sığorta, standartlara uyğun avtomobil və lisenziya tələb olunur. Bütün bu sənədlərin alınması üçün yüzlərlə manat və çox vaxt tələb olunur.

Ən ciddi məhdudiyyətlərdən biri - 8 ildən artıq istismar müddəti olan avtomobillərin taksi kimi istifadəsinin qadağan edilməsidir. Halbuki hazırda işləyən taksilərin təxminən 60 faizi məhz bu kateqoriyaya aiddir. Bu, minlərlə sürücünün avtomobilini sıradan çıxarır və faktiki olaraq onları bazardan uzaqlaşdırır.

**Sürücülərin çoxu düşünür ki, bu qaydalar təsadüfi deyil, məqsəd bazarı kiçiltmək və az sayda iri şirkətlərin nəzarətinə verməkdir.** "Sanki bizi bu işdən bezdirmək istəyirlər. Gündə bir yeni tələb çıxır. İndi maşınım 10 yaşındadır, deyirlər, bu avtomobilə lisenziya verilməyəcək. Mən bu maşını kreditlə almışam, indi kim qaytaracaq o pulu?" - deyə sürücü narazılıq edir.

Hazırda ölkədə işsizlik səviyyəsi kifayət qədər yüksəkdir. Xüsusilə də gənclər və orta yaşlı kişilər üçün taksi fəaliyyəti alternativ gəlir mənbəyidir. İndi bu imkan da əllərindən alınır. Taksilərə qoyulan yeni qaydalar təkcə nəqliyyat sahəsini tənzimləmir, həm də insanların gündəlik çörək qazancına müdaxilə edir. İşsizlik və sosial gərginlik fonunda bu cür sərt məhdudiyyətlərin tətbiqi cəmiyyətdə ciddi narazılıq dalğası yaradır.

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı hesab edir ki, belə bir məhdudiyyətin tətbiq olunacağı gözlənilən idi:** "Qanunda açıq şəkildə yazılıb ki, aidiyyəti qurum tərəfindən Bakı şəhərində taksi minik avtomobillərinə kvota müəyyənləşdirilə bilər. Ötən müddət ərzində biz bu məsələni bir neçə dəfə müzakirə etdik, sayın 30-35 min civarında müəyyənləşdiriləcəyini gözləyirdik.

Amma 25 min müəyyən edildi. Görünür, beynəlxalq təcrübə əsas götürülüb. Çünki AYNA-nın yaydığı açıqlamada da bu əks olunmuşdu. Beynəlxalq təcrübədə hər min nəfərə səkkiz taksi hesablanır. Qərar noyabrın 1-dən qüvvəyə minib, lakin həmin müddətdən sonra sürücülərinin kənarda qalacağını deyə bilmərik. Çünki bunu tam həyata keçirmək üçün bir xeyli müddət lazımdır. Proses qısa müddətdə gözlənilmir, ən azı 3 il vaxt aparacaq. İndidən taksi sürücüləri narahat olmasınlar, əllərində icazələri varsa, rahat şəkildə işlərini görə bilərlər. Sadəcə olaraq, müəyyən bir müddətdən sonra avtomobilin ili köhnəlir, sənədlərin vaxtı bitir. Bu artırma zamanı AYNA tərəfindən bir reqlament müəyyənləşdiriləcək və növbəlilik prinsipi ilə icazələr veriləcək. Ümumilikdə hazırda 34 mindən artıq taksi sürücüsü qeydiyyatdan keçib. Onun 20 mini fiziki şəxsdir, yerdə qalanlar isə hüquqi şəxslərdir. Hər halda, şəhər nəqliyyatı aspektindən baxsaq, bəli, burada yanaşma doğrudur.

Sırf sosial məsələ kimi yanaşdıqda, qərar müəyyən çətinliklər yaradacaq. Bir sıra taksi sürücülərinin işsiz qalması ola bilər. Ümid edirik ki, bu məsələ hansısa bir formada tənzimlənəcək".

**Ekspert deyir ki, sürücülərin əksəriyyəti taksi şirkətləri ilə işləyir:** "34 min sürücünün 20 mini fiziki şəxslərdir, yerdə qalan 14 min isə taksi şirkətlərinin payına düşür. Onlar da AYNA-nın tələbi ilə iki rejimli iş prinsipinə keçsələr, sürücülər kənarda qalmayacaq. Taksi buraxılış vərəqəsi, sertifikatı olanlar icazəni alacaq. AYNA da açıqladı, hər şey növbəlilik prinsipi əsasında olacaq. Bu qərar ancaq Bakı şəhərinə aiddir".

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bu kvota sürücülərə tətbiq edilmir, söhbət istismar olunan nəqliyyat vasitəsindən gedir:** "Bu zaman fikir yaranar ki, 25 min taksidən söhbət gedirsə, deməli, 25 min sürücü nəzərdə tutulur. Lakin belə deyil, bir maşını bir neçə sürücü idarə edə bilər. Sutka ərzində bir neçə sürücü bir maşından növbəli olaraq istifadə edə bilər. Sürücüyə kvota qoymaq mümkün deyil, onların sayı istənilən qədər ola bilər. Düşünmürəm ki, bu kvota tətbiq ediləndən sonra taksi sayı və sürücülərin maddi rifahı kəskin azalacaq. Taksidə peşəkar, bu işi özünə peşə seçən təcrübəli, insanlarla davranmağı bacaran sürücülər qalacaq. Bu qərarın verilməsində məqsəd, ola bilər ki, Bakı şəhərində sıxlığın aradan qaldırılması, avtomobil axınının azaldılması və taksidə keyfiyyətin artırılmasıdır. Bu məhdudiyyət sırf Bakıya aid olan məsələdir, bütün Azərbaycana şamil olunmur. Hazırda taksi sürücülərinin fəaliyyətinə mane olan tərəf taksi şirkətləridir. Onlar sürücüləri aldadırlar və sutka ərzində çox işlədirlər. Həm də sürüclərə vəsaitləri vaxtında ödəmirlər. Həmçinin sərnişinlə sürücü arasında konfliktin yaranmasına səbəb olurlar. Bu gün bizim həll etməli olduğumuz məsələ taksi şirkətləri ilə sürücülər arasında olan narazılıqları həll etməkdir. Taksi sürücülərinin iş şəraitinin, maddi rifahının yaxşılaşması üçün çalışmalıyıq".

❑ **Şəhanə RƏHİMLİ,**
**Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 201 (8811) 5 noyabr 2025

Noyabr




## Gündə nə qədər enerji içkisi içmək olar?

**"Gün ərzində cəmi 250 ml enerji içkisi içmək olar". Bununla bağlı rusiyalı mütəxəssis, qastroenteroloq Sofiya Kardaşova açıqlamalar verib. "Gündə 250 ml-dən çox olmayaraq enerji içkisinin qəbulu məqbuldur. Bundan əlavə, heç bir halda enerji içkiləri ilə fiziki yüklənməni birləşdirmək olmaz, çünki bu zaman ürəyə böyük yük düşür. Həmçinin enerji içkilərini qəhvə, yaşıl və ya qara çayla da içmək olmaz - həddindən artıq kofein səbəbindən bu da ürəkdə problemlərin yaranmasına gətirib çıxara bilər. Hamiləlik və laktasiya dövründə də onları içməməlisiniz. Və yadda saxlamaq lazımdır ki, enerji içkisini içib bitirdikdən sonra yatıb yuxunu almaq lazımdır. Enerji içkisi əlavə güc vermir, əksinə, insanın öz enerji ehtiyatını da tükəndirir", - deyə həkim bildirib.**

Beləliklə, həftədə iki və ya üçdən çox olmamaqla, enerji içkisi qəbul etmək olar və bundan sonra da bədənə ehtiyatlarını bərpa etmək üçün vaxt vermək lazımdır.

"Enerji içkiləri ürək döyüntüsünü və qan təzyiqini artırır. Və içdiyiniz enerji içkisinin miqdarından asılı olaraq təsiri güclənir. Enerji içkilərinin qəbulu fonunda miokard infarktı ilə bağlı faktlar məlumdur, ona görə də ürək-damar sistemi problemləri olan insanlar üçün qəti şəkildə əks göstərişdir. Bundan əlavə, kofeinin tez-tez qəbulu su-duz balansını pozur ki, bu da öz növbəsində sidik ifrazını artırır və insana lazım olan duzları xaric edir", - deyə mütəxəssis qeyd edib.

# BMT dünyada aclıq çəkən insanların sayını açıqladı



**2024-cü ildə 673 milyon insan aclıq, 2.3 milyard insan isə ərzaq təhlükəsizliyi problemi ilə üzləşib. Bu barədə BMT Baş Assambleyasının 80-ci sessiyasının prezidenti Annalena Berbok Qətərdə keçirilən Aclıq və Yoxsulluğa Qarşı Qlobal Alyans liderlərinin ilk görüşündə bildirib. O qeyd edib ki, iqlim dəyişikliyi aclığa və yoxsulluğa gətirib çıxarır, kütləvi miqrasiya və münaqişələrə səbəb olur, münaqişələr isə aclığı və yoxsulluğu daha da artırır. Berbokun fikrincə, aclığa qarşı mübarizə yalnız xeyriyyəçilik aktı deyil, həm də təhlükəsizlik məsələsidir.**

# 2060-cı iladək istiləşmə həddi proqnozlaşdırılıb



**Sürix Ali Texniki Məktəbi, Stenford Universiteti və Kolorado Ştat Universitetinin alimlər qrupu bəyan edib ki, regional istiləşmə həddini əvvəllər düşünüldüyündən daha tez görəcəyik. Bu barədə "Moskovski Komsomolets"ə istinadən xəbər verir. Məlumata görə, söhbət 1.5 dərəcə Selsi istiləşmə həddindən gedir. Alimlərin tədqiqatının nəticələri "Environmental Research Letters" jurnalında dərc edilib. Əvvəllər bildirilirdi ki, Yer kürəsinin əksər quru regionları 2040-cı ilədək və ya bir qədər əvvəl 1.5 dərəcə Selsi kritik istiləşmə həddini keçəcək. Lakin 10 iqlim modelinin təhlilinə əsasən, 34 quru region 2040-cı ilə qədər 1.6 dərəcə Selsi istiləşmə səviyyəsini keçəcək. "Bu zaman həmin regionların 31-də hədd 2 dərəcə Selsini keçəcək. 26 regionda isə 2060-cı ilə qədər istiləşmə 3 dərəcə Selsi həddini keçəcək", - məqalədə qeyd olunur.**



## Aspirinin diabetə də xeyri var imiş

**Aspirin diabet xəstələrində ürək riskini azalda bilər. Milli.Az xəbər verir ki, ABŞ-nin Pittsburq Universitetinin alimləri müəyyən ediblər ki, az dozada aspirin qəbul etmək ikinci tip şəkərli diabeti olan insanlarda ürək və beyin xəstəliklərinin riskini azalda bilər. Araşdırma nəticəsində məlum olub ki, aspirini mütəmadi qəbul edən diabet xəstələrində ürək tutması və insult halları, həmçinin ölüm faizi bu dərmanı qəbul etməyənlərlə müqayisədə xeyli azdır.**

Mütəxəssislər bildirirlər ki, aspirin xüsusilə uzun müddət davamlı qəbul edildikdə daha effektiv olur. Lakin həkimlər xəbərdarlıq edirlər ki, preparatı yalnız mütəxəssis məsləhəti ilə qəbul etmək lazımdır.

## Niderlandın bu şəhərində qəhvə və çay satışı dayandırılıb

**Niderlandın Utrext şəhərinin bir çox müəssisələrində içməli suda bakteriya aşkarlandığı üçün müvəqqəti olaraq qəhvə və çay verilmir. Bu barədə məlumatı "RTV Utrecht" yayıb. Bildirilir ki, bir neçə gün əvvəl Utrextdəki içməli su şəbəkəsində bakteriyalar aşkarlandıqdan sonra yaxın günlərdə bölgənin bir çox müəssisələrində bir fincan qəhvə və ya çay almaq çətin olacaq. İçkilərin satışında problemlər şəhərin dəmiryol stansiyalarında və Utrext Universitetinin xəstəxanasının ambulator şöbəsində də müşahidə olunur. Xəbərdarlıq edilib ki, ən azı çərşənbə gününə qədər bölgənin bir çox rayonlarında suyu istifadə etməzdən əvvəl ən azı üç dəqiqə qaynatmaq lazımdır.**

## Bunları bilirsinizmi?

* 1 kq kökəlmək üçün bədənimiz 20 km yeni damar əmələ gətirir.
* Dünya da ən uzun hakimiyyətə qalmış sülalə Osmanlı sülaləsidir. (623 il)
* Qarışqa yuvalarının girişi hər zaman şimala tərəf olur.
* Vaxtının çoxunu musiqi dinləyərək keçirən insanlar daha çox depressiv insanlar olur.
* Shakespeare 23 apreldə doğulmuş və 23 apreldə vəfat etmişdir.
* Norveçin şimalında hər yay 14 həftə gecə-gündüz günəşli keçir.
* Timsahlar dillərini çölə çıxara bilmirlər.
* Fransızlar ən nəzakətli xalq sayılır. Bir yazıçı bunu sübut etmək üçün yazır:"Bu yaxınlarda Parisin köhnə bir qəbiristanlığında üzərində yazılar olan bir başdaşı tapdım. Orada yazılmışdı: "Mənim istirahət yerimə yaxınlaşanda ayağa qalxıb sizi salamlamadığım üçün üzr istəyirəm".
* Ağcaqanadların 47 ədəd dişi olur.
* Almaniyadakı zooparkların birində "Dünyanın ən təhlükəli heyvanı" zalı vardır. İçəri daxil olduqda qarşınıza nəhəng bir güzgü çıxır.
* Burnunuzla baş barmağınız eyni boydadır.
* Dişləriniz doğumunuzdan 6 ay əvvəl meydana gəlməyə başlayır.
* Bədəninizin 30 dəqiqədə itirdiyi istiliklə iki litr suyu qaynada bilərsiniz.
* Hər bir ayağınızda təxminən bir trilyon bakteriya var. * Ortalama bir yuxu 2-3 saniyə davam edər.
* Yeməyin ağzınızdan mədənizə çatması yeddi saniyə davam edir.
* Mədə turşunuz bir ülgücü əridə biləcək gücdədir.
* Bir cüt ayaqda 250 000 tər vəzisi var.
* Ayaq baş barmağınızda iki sümük olmasına qarşılıq digər dörd barmağınızda üç sümük var.
* Ortalama bir qadın ortalama bir adamdan 12,5 sm qısadır.

## Ev heyvanı ilə yatanlara ciddi xəbərdarlıq



**Bir çox insan gecələr pişiyi və ya iti ilə yatmağı rahatlaşdırıcı hesab edir. Onların istiliyi və sakit nəfəsi bəzən ən gözəl yuxu yoldaşı kimi görünür. Lakin baytar mütəxəssislər xəbərdarlıq edir: bu vərdiş hər zaman zərərsiz deyil.**

Milli.Az xəbər verir ki, baytar həkim Pablo Antonio Olmedo deyib ki, heyvanlarla eyni yataqda yatmaq insan psixologiyasına müsbət təsir göstərir:

"Bir it və ya pişiklə yatmaq stresi və narahatlığı azaldır, yuxunu yaxşılaşdırır və emosional bağları gücləndirir. Onların nəfəs ritmi və bədən istiliyi insana sakitləşdirici təsir edir".

Olmedoya görə, bu yaxınlıq xoşbəxtlik hormonunu artırır, stress hormonu olan kortizolu azaldır, insanın özünü daha rahat və güvəndə hiss etməsinə səbəb olur.

ABŞ-ın Milli Yuxu Fondu və Amerika Psixiatriya Assosiasiyası (APA) bildirir ki, ev heyvanları ilə təmas təkliyin təsirini azaldır və insanların özlərini daha güvənli hiss etmələrinə kömək edir.

Vaşinqton Universitetində aparılan bir araşdırma isə göstərib ki, bir iti və ya pişiyi cəmi 10 dəqiqə sığallamaq kortizol səviyyəsini əhəmiyyətli dərəcədə azaldır.

Amma bütün bu müsbət tərəflərə baxmayaraq, mütəxəssislər yuxu keyfiyyətinə diqqət yetirməyi məsləhət görürlər. Amerika Yuxu Tibb Akademiyasına görə, ev heyvanları ilə eyni yataqda yatan insanların üçdə biri gecə yuxusunun bölündüyünü deyib.

Pişik və itlər fərqli yuxu ritmlərinə malikdir və gecə hərəkət edib səs çıxara bilirlər ki, bu da insan yuxusuna mənfi təsir edir.

Əgər heyvanın peyvəndləri tam deyil və ya parazit müalicəsi vaxtında aparılmırsa, bu, bakteriya, allergen və ya parazit riski yarada bilər. Alergiyası və ya astması olan şəxslərdə tük və toz simptomları ağırlaşdıra bilər.

Mayo Clinic isə bildirir ki, bu risklər müntəzəm baytar nəzarəti, təmizlik və yataq dəstlərinin tez-tez yuyulması ilə minimuma endirilə bilər.

"Ev heyvanınızla eyni otaqda, amma fərqli yataqda yatın".

Beləcə həm emosional bağ qorunur, həm də yuxu və sağlamlıq keyfiyyəti pozulmur. Ancaq hər bir insan və heyvan fərqlidir - ona görə də ən doğru qərar həm sizin, həm də tüklü dostunuzun rahatlığını və sağlamlığını nəzərə alan qərardır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.